بسم الله الرحمن الرحيم

**RƏHMAN VƏ RƏHİM**

**OLAN ALLAHIN ADI İLƏ**

# OXUCUYA

- Bu kitabda və digər çalışmalarımızda təkamül nəzəriyyəsinin özünü doğrultmamasına və puç olmasına aid fikirlərə geniş yer ayırmağımızın əsas səbəbi adıçəkilən nəzəriyyənin əslində din əleyhinə düşüncə və təlimlərdən ibarət olmasıdır. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 140 ildir ki, bir çox insanların öz imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olur. Buna görə də bu nəzəriyyənin aldadıcı olduğunu sübuta yetirmək və diqqətə çatdırmaq çox mühüm imani vəzifədir. Bunu insanlara çatdırmaq isə daha vacibdir.
- Bəzi oxucularımızın bəlkə də təkcə bir kitabımızı oxumağa fürsəti olacaq. Buna görə də hər bir kitabımızda bu mövzuya qısa da olsa yer ayırmağı məqsədəuyğun bilirik.
- Nəzərə çatdırılması lazım olan digər bir məsələ də bu kitabların içindəkilərlə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri işığında izah olunur, insanlar Allahın ayələrini öyrənməyə və onlara uyğun yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə bağlı bütün məsələlər isə oxucunun şüurunda heç bir şübhə və ya sual yaratmayacaq şəkildə açıqlanır.
- Bu izahatda istifadə edilən səmimi, sadə və axıcı üslub kitabların 7 yaşdan 70 yaşa qədər hər kəs tərəfindən rahat başa düşülməsini təmin edir. Belə təsirli və dəlil-sübutlu izahat sayəsində kitablar birnəfəsə oxunur. Hətta dini rədd etmək fikrində qəti olanlar da bu kitablarda göstərilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmir. Bu kitabı və müəllifin digər əsərlərini həm təklikdə, həm də qarşılıqlı söhbət, polemika şəraitində rahat oxumaq mümkündür. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun onları birlikdə oxuması mövzu ilə bağlı fikir və təcrübəsini də bir-biri ilə bölüşməsi səbəbindən yararlı olacaq.
- Bununla belə sadəcə olaraq Allah rizası üçün yazılan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmətdir. Çünki müəllifin bütün kitablarında oxucuya müsbət təsir bağışlayan məsələləri sübut etmək üsulu çox güclüdür. Həmçinin dini izah etmək istəyənlərin əlindəki ən təsirli üsullardan biri də bu kitabları hamının oxumasını təşviq etmək, buna çalışmaqdır.
- Müəllifin digər əsərlərinin üz qabığının şəkillərinin kitabların son hissəsinə əlavə edilməsinin də mühüm səbəbləri var. Kitabı əlinə alan hər bir adam yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri özündə toplayan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə malik olan çoxlu əsərlərin olduğunu görəcək. Eyni zamanda həm dini, həm də siyasi mövzularda istifadə edəcəyi mənbələrin mövcudluğuna şahid olacaq.
- Başqa kitablarda rast gəldiyimiz şəxsi fikirlərə, müəllif qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəslərə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirməyən üslublara, ümidsizliyə aparan şübhəli yazılara və digər çatışmazlıqlara bu əsərlərdə rast gələ bilməzsiniz.

HARUN YƏHYA

# İSLAM VƏ BUDDİZM

MÜƏLLİF VƏ

## ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif 1956-cı ildə Ankarada anadan olub. Orta məktəbi Ankarada oxuyub. Sonra İstanbulda Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil alıb. 80-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Bununla yanaşı müəllifin təkamülçülərin (darvinistlərin) saxtakarlığını, onların iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını göstərən, habelə darvinizmin qanlı ideologiyalarla şübhəli əlaqələrini üzə çıxaran bir çox mühüm əsərləri var.

Müəllifin bu imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq seçilib: onları yad etmək məqsədilə Harun və Yəhya adlarından istifadə edilib. Rəsulullahın möhürünün müəllif tərəfindən kitabların üz qabığına vurulmasının simvolik mənası isə onların içindəkilərlə bağlıdır. Bu möhür Qurani-Kərimin Allahın sonuncu Kitabı və sonuncu sözü, Peyğəmbərimizin isə peyğəmbərlərin sonuncusu olmasının rəmzidir. Müəllif bütün yazılarında Quranı və Rəsulullahın sünnəsini rəhbər tutur. Bununla da inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını bir-bir puça çıxarmağı və dinə qarşı yönələn etirazları tamamilə susduracaq sonuncu sözü söyləməyi hədəf seçir. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu sonuncu sözü söyləmək niyyətinə bir dua kimi istifadə edilib.

Müəllifin əsərlərindəki əsas məqsəd Quranı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı, birliyi və axirət kimi əsas iman məsələləri barədə dərindən düşünməyə sövq etmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan ABŞ-a, Böyük Britaniyadan İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan

Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və MDB ölkələrinə qədər dünyanın əksər ölkələrində maraqla qarşılanır və birnəfəsə oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, İndoneziya, malay, benqal, bolqar, yapon, Çin, Azərbaycan kimi dillərə tərcümə edilən bu əsərlər geniş oxucu kütləsi tərəfindən maraqla izlənir.

Dünyanın dörd bir tərəfində böyük rezonans doğuran bu diqqətəlayiq əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da öz imanını kamilləşdirməsinə səbəb olur. Bu kitabları oxuyan və incələyən hər kəs onlardakı hikməti, habelə yığcam, dolğun, asan başa düşülən səmimi üslubu, həyati həqiqətlərin elmi-məntiqi izahını dərhal görür. Bu əsərlər hər bir kəsə tez bir zamanda təsir etmək, tam nəticə vermək, etirazlara yer qoymamaq və dəlillərin elmiliyi kimi xüsusiyyətlərə malikdir. Bu əsərləri oxuyan və onların üzərində ciddi düşünən adamların materialist fəlsəfəni, ateizmi, başqa batil fikir və fəlsəfələri müdafiə etməsi daha əsla mümkün deyil. Bəziləri müdafiə etsələr belə bunu yalnız inadkarlıq üzündən edəcəklər, çünki onların fikirlərinin əsasları çürükdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhyanın külliyyatında elmi düşüncə nöqteyi-nəzərindən məğlub ediliblər. Şübhə yoxdur ki, bu xüsusiyyətlər Quranın hikmətindən və onun ifadə etdiyi fikirlərin gözəlliklərindən qaynaqlanır.

Müəllifin özü isə bu əsərlərinə görə lovğalanmır, əksinə, Allahın hidayətinə vasitəçi olmağa niyyət edir. Bundan başqa bu əsərlər nəşr edilərkən heç bir maddi qazanc güdülmür.

Bu həqiqətlər nəzərə alınmalıdır. O zaman məlum olar ki, insanları onlara görmədiyini görməkdə kömək edən, onların hidayətə gəlməsinə səbəb olan belə əsərlərin oxunmasına həvəsləndirməyin özü də çox mühüm xidmətdir. Bu dəyərli əsərləri tanıtmaq əvəzinə insanların zehnini qarışdıran, fikirlərinin qarışmasına səbəb olan, şübhə və tərəddüdləri aradan qaldırmağa, imanı xilas etməyə bir təsiri olmadığı təcrübədən keçirilən kitabları yaymaq yalnız və yalnız əmək

və vaxt itkisi demək olacaq. İmanı xilas etməkdən daha çox müəllifin ədəbi gücünü göstərməyə yönəlmiş kitablarda bu təsirin olmayacağı aydındır. Bu mövzu ilə bağlı şübhəsi olanlar varsa, onlar Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaqdan və Quran əxlaqını yaymaqdan ibarət olduğunu, bu xidmətdəki təsir gücünün, müvəffəqiyyət və səmimiyyətin aydın göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilər. Bunu qəti şəkildə yəqinləşdirmək və anlamaq lazımdır ki, dünyadakı zülm və iğtişaşların, müsəlmanların çəkdiyi əziyyətlərin əsas səbəbi dinsizliyin ideya hakimiyyətidir.

Bunlardan qurtulmağın yolu isə dinsizliyin ideya cəhətdən məğlub edilməsi, imani həqiqətlərin ortaya çıxarılması və Quran əxlaqının insanların dərk edib mənimsəyə biləcəyi şəkildə çatdırılmasıdır. Dünyanı hər gün daha çox zülmə, iğtişaş və fəsadlara məruz qoymaq istəyənlərin niyyətini nəzərə alsaq bəlli olar ki, bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə yerinə yetirilməsi çox vacibdir. Əks təqdirdə çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə çox böyük bir vəzifəni öz üzərinə götürmüş Harun Yəhyanın külliyyatı Allahın icazəsi ilə XXI əsrdə insanları Quranda bildirilən əmin-amanlığa və barışa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmaqda bir vasitə olacaq.

**Bu tərcüməmizdə istifadə edilən ayələr Vasim Məmmədəliyevin və Ziya Bünyadovun birlikdə hazırladığı Qurani-Kərimin Azərbaycan dilindəki tərcüməsindən götürülüb.**

# İÇİNDƏKİLƏR

**Giriş ------------------------------------------------------------ 14**

**BÜTPƏRƏST BİR DİN: BUDDİZM --------------- 15**

**BUDDİZMİN BATİL İNANCLARI ----------------- 16**

**MATERİALİST QƏRB MƏDƏNİYYƏTİ**

**VƏ BUDDİZM --------------------------------------------**

**17**

**BUDDİZM TƏHRİF EDİLMİŞ HAQQ DİN OLA**

**BİLƏRMİ? ----------------------------------------------**

**18**

**NƏTİCƏ: HAQQ GƏLDİ, BATİL YOX OLDU- 19**

# GİRİŞ

Başqa insanlardan fərqli göünmək və onlardan seçilmək əksər insanlarda həyəcan yaradır. Tarix boyunca demək olar ki, hər cəmiyyətdə həyat tərzləri, geyimləri, saç düzümü yaxud fərqli çıxışları ilə "seçilməyə", diqqətləri öz üzərində toplamağa çalışan insanlar və cərəyanlar olmuşdur. Bu insanlar və cərəyanlar cəmiyyətin həm təzyiqini, həm də maraqlarını özlərinə yönəltməyi bacarmışlar.

Son illərdə də Qərb cəmiyyətlərində qeyri-ənənəvi və cəmiyyətdən kənar həyat tərzləri ilə diqqəti özlərinə cəlb edən yeni bir cərəyan görünür. Bu cərəyan Şərq mədəniyyətindan, fəlsəfəsindən və inanclarından istifadə edərək diqqəti öz üzərinə çəkmək istəyən insanlardan təşkil olunmuşdur. Bu cərəyanın yararlandığı Şərq fəlsəfi sistemlərinin başında isə buddizm gəlir.

Dünya miqyasında, xüsusilə də Amerika və Avropada bəzi insanlarda buddizmə qarşı bir maraq müşahidə olunur. Bu marağın ən mühüm səbəblərindən biri bu batil inancın insanlara sirli, mistik və heyrətamiz xüsusiyyətlərə malik olması fikrinin aşılanmasıdır. Buddizmi qəbul edən insanlar da əsasən bu fəlsəfəyə inandıqlarına və ya onu məntiqli qəbul etdiklərinə görə deyil, qeyd etdiyimiz mistik ab-havadan təsirləndikləri üçün seçirlər. Çünki bu batil inanc onlara gündəlik həyat tərzlərindən, həyatları boyu qarşılaş-

dıqları başqa fəlsəfələrdən çox fərqli və çaşdırıcı formada təqdim edilir. Məsələn, buddizmin ortaya çıxması insanlara əfsanəvi bir nağıl kimi çatdırılır. Buddizmdən bəhs edən kitablarda və ya filmlərdə Budda nəhəng sirr mənbəyi kimi göstərilir. Həmçinin buddist rahiblərin həyatı da qərbli insanlara sirlərlə dolu, dolayısı ilə diqqətçəkici olaraq tanıdılır. Bu insanların qəribə geyimləri, qırxılmış saçları, ibadət formaları, mərasimləri, yaşadıqları yerlər, yoqa və meditasiya kimi qəribə hərəkətləri insanları heyrətə salır, onların diqqətini cəlb edir.

Buna görə də cəmiyyətdə "başqa insanlardan fərqli" şəkildə tanınmaq və özünə "sirli insan" imici vermək istəyən insanlar üçün buddizm əhəmiyyətli bir vasitəyə çevrilir. Məsələn, adi həyat tərzi sürən bir insan bir gün saçını dibindən qırxdırıb buddist paltarları ilə gəzməyə və ətrafındakı insanlara o günə qədər işlətmədiyi mistik sözlərlə buddizm təlimindən bəhs etməyə başlayarsa, təbii olaraq diqqəti özünə cəlb edəcək və "orijinal bir insan" kimi görünəcək.

Buddizmi qəbul edən məşhur insanlar da eyni məqsədi güdürlər. Diqqəti özünə cəlb etmək, bəlkə də daha çox tanınmaq, başqa insanlardan fərqli olduqlarını vurğulamaq üçün Tibetdə buddistlərə xas geyimlərdə bəyanatlar verirlər. Buddist rahiblərlə birlikdə onların müqəddəs məbədləri sayılan yerləri ziyarət edir və həmçinin bu batil dinin təbliğatını aparırlar. Ola bilər ki, siz də bu günə qədər buddizm haqqında çox şey oxumuş, kütləvi informasiya vasitələri ilə ümumi məlumatlar əldə etmisiniz. Biz isə bu kitabda buddizmin batil bir fəlsəfə olduğunu Quran ayələri işığında incələyəcək və insanların bu batil dinin naqis yönlərini aydın şəkildə görməsini təmin edəcəyik.

Buddizmin meydana çıxmasını, yazılı mənbələrini, ümumi inanclarını, ibadət formalarını və qeyd edilən dinin qurucusu Bud-

danın həyatını Quran ayələri ilə dəyərləndirəndə bu fəlsəfənin əsasının çox batil təlimlər üzərində qurulduğunu, onun insanın ağlına və məntiqinə zidd olan qəribə ibadətlər olduğunu, insanları daşdan, torpaqdan düzəldilən bütlərə ibadət etməyə yönəltdiyini görürük. Ağıla və məntiqə uyğun gəlməyən bir inanc olan buddizm qəbul edildiyi ölkələrin bütpərəst anlayışı ilə, adət-ənənələri ilə də qarışmış, xurafatlarla və azğın düşüncələrlə bütünləşərək tam mənası ilə inkarçı bir fəlsəfəyə çevrilmişdir. Buddizm Brahma dini ilə, hindiuzmlə, sintoizmlə və digər Şərq dinləri ilə qaynayıb-qarışmağa başladıqca daha da qaranlıq hala gəlmişdir. Uzaq Şərqin sirli görüntüsündən təsirlənərək ona inanmadıqları halda yalnız diqqəti özünə cəlb etmək məqsədi ilə bu batil dini qəbul edən insanlar yaddan çıxarmamalıdır ki, buddizm özündə əslində insanı Allahı inkar etməyə, əllə düzəldilən bütləri Ona şərik qoşmağa və batil bir həyat sürməyə qədər aparan azğın təlimləri ehtiva edir. Buddizmin məntiq yönlərini görmədiyindən gəlib sadəcə bir maraq naminə bu dini qəbul etmək insanı çox böyük itkilərə sürükləyir.

Buddizmin təbliğatı ilə məşğul olanların istifadə etdiyi üsullardan biri də onların bu batil inancı insanlara bir qurtuluş yolu olaraq təqdim etməsidir. Buddizmin içində yaşadıqları materialist cəmiyyətdən, bu cəmiyyətdəki mərhəmətsiz və davakar mədəniyyətdən, qəddarlıqdan, sıxıntılardan, xaosdan, mənasız mübarizələrdən, rəqabətdən, eqoizmdən və yalançılıqdan qaçan insanlara sülh, əmin-amanlıq, xoş münasibət və səadətlə dolu bir həyat yolu olaraq göstərilməsinə cəhd edilir. Halbuki buddizm zənn edildiyi kimi insanlara xoşbəxtlik gətirən bir inanc deyil. Tam əksinə, buddizm öz içinə qapılan insanları böyük bir bədbinliyə aparır. Bu insanlar aldıqları təhsilə, malik olduqları müasir dünyagörüşünə baxmayaraq əllərindəki qablarla dilənçiliyi məqbul sayan, insanların siçan-

lara və ya inəklərə çevriləcəyi axmaqlığına inanan, daşlardan düzəldilmiş bütlərdən kömək istəyən insanlara çevrilirlər. Buddizmin batil inancları bu insanlara qarşı ciddi psixi təxribatlar törədir. Buddizmin geniş yayıldığı ölkələr və ya Buddist rahiblərin çox yaşadığı yerlər tədqiq ediləndə həmin yerlərdə bədbinliyin və sıxıntıların hökm sürdüyünə şahid olmaq mümkündür. Bunun əsas səbəblərindən biri buddizmin insanlara təlqin etdiyi miskinlik və tənbəllikdir. Axirət inancının olmadığı buddizmdə insanlar daha yaxşı olmağa, özlərini inkişaf etdirməyə, ətraflarını gözəlləşdirməyə, mədəni olaraq qabağa getməyə həvəsləndirilmir. İslam isə insanların həmişə daha gözələ, daha yaxşıya doğru getməsini istəyir. İslamda dinamizm hakimdir. İslam əxlaqı insanların araşdırıb öyrənməsini, özlərini kamilləşdirməsini, ətrafdakılara xeyir verən insanlar olmasını lazım bilir.

Bu, aydın bir həqiqətdir ki, insanların dünya üzərindəki həqiqi səadət və xoşbəxtliyə qovuşmasının, hər cür pislikdən, qəddarlıqdan, bədbinlikdən və sıxıntıdan azad olmasının yeganə çarəsi Yaradanımız olan Allaha təslim olmaq, Onun razı olacağı kimi bir həyat yaşamaqdır. Yerlərin və göylərin yeganə sahibi olan Rəbbimiz bütün insanların qurtuluş yolunun hidayət rəhbəri olaraq göndərdiyi Qurana sarılmaq olduğunu bildirmişdir. Allah "İbrahim" surəsində belə buyurur: **"Bu elə bir kitabdır ki, onu sənə insanları onların öz Rəbbinin izni ilə zülmətlərdən nura - yenilməz qüvvət sahibi, tərifə layiq olan Allahın yoluna çıxarmaq üçün nazil etmişik"** ("İbrahim" surəsi, 1). Buddizm kimi bütpərəst dinlərə inananlar bilməlidir ki, "haqdan sonra ancaq zəlalət" var:

> **"O, sizin həqiqi Rəbbiniz olan Allahdır. Artıq haqdan sonra zəlalətdən başqa nə qalır?! Belə isə necə döndərilirsiniz?" ("Yunus" surəsi, 32).**

# BÜTPƏRƏST BİR DİN: BUDDİZM

Buddizm günümüzdən təxminən 2500 il əvvəl Hindistanın cənub-şərqində ortaya çıxıb. Zaman ötdükcə Şri-Lanka, Monqolustan, Seylon, Mancuriya, Koreya, Yaponiya, Tibet, Çin, Tailand və Nepal kimi ölkələrdə təsirli olub. Bu gün bütün dünyada təxminən 300 milyon buddistin (və buddizmə rəğbət bəsləyənin) olduğu güman edilir. Buddizmi və buddist həyat anlayışına tərif vermək məsələsində fikirlər haçalanıb. Bəzilərinə görə, buddizm bir din olduğu halda digərləri onun məzhəb, təriqət və ya fəlsəfi cərəyan olduğunu söyləmişlər. Nəticədə buddizmin dünyagörüşlərini və bütün əməli tərəflərini nəzərə alaraq deyə bilərik ki, buddizm bütpərəst batil təlimdir. Buddizm Allah inancına sahib olmayan ateist bir dindir. O, axirətin, hesab gününün, cənnətin, cəhənnəmin və mələklərin varlığını rədd edir.

Buddizmin qurucusu Siddharta Qautama eramızdan əvvəl 563-483-cü illərdə Hindistanın Kapilavastu şəhərində yaşamışdır. Onun yaşadığı illərdə Hindistanda geniş yayılmış din ölkəni işğal etmiş ariyalıların dini olan brahmanizm idi. Ariyalılar keçilməsi heç vaxt mümkün olmayan möhkəm bir kasta sistemi tətbiq etmişdilər. Bu kasta sisteminə görə, cəmiyyət dörd qrupa ayrılmışdı. Hər qrup da öz daxilində bölünürdü. Brahman din adamları cəmiyyətin ən üst təbəqələrini təşkil edirdilər. Onlar xalqa qəddarcasına zülm edirdilər.

Soylu Sakya ailəsinə mənsub olan Qautama Suudhodana adlı alicənab bir şahzadənin oğlu kimi doğulmuşdu. Gənclik illəri rifah və bolluq içində keçmişdi. 29 yaşında ikən saraydan ayrılan Qautama 80 yaşında ölənə qədər mistik axtarışlara başlamış və bə-

zi prinsipləri müəyyən etmişdi. Bu prinsiplər dövr keçdikcə təlimə çevrildi. Buddizm də bu təlimdən ibarətdir.

"Budda" kəlməsi "oyandırılmış" və ya "aydınlanmış" mənalarına gəlir. Bu da Siddharta Qautamanın çatdığı hesab edilən mənəvi dərəcəni ifadə edir. Buddadan günümüzə qədər gəlib çatan mətnlər isə onun yaşadığı dövrə aid deyil. Bu mətnlər onun ölümündən 300-400 il sonra yazılıb. Bu mətnlərdə kitabın sonrakı səhifələrində də görəcəyiniz kimi çoxlu batil inanc, ağıl və məntiqə zidd olan tətbiqatlar və Buddanı qarşısında səcdə edilən bir büt kimi göstərən batil açıqlamalar mövcuddur.

## Buddanı Allaha şərik qoşanlar

Buddizm etiqad əsasları, fəlsəfəsi və praktiki tərəfləri ilə bütpərəst bir dindir. Buddizmdə insanlar Buddaya qarşı coşğulu bir sevgi, dərin ehtiram və qorxu hiss edirlər. Onu adətən bir tanrı olaraq qəbul edirlər. Buddanın yaşadığı dövrdə ona sitayiş edilməsini təşviq etdiyinə dair bir sənəd, məlumat olmasa da Buddanın ölümündən sonra bütpərəst brahmanlar ardıcıl şəkildə Budda heykəlləri düzəltməyə başlamışdılar. Buddaya qarşı həddindən artıq sevgi bəsləyənlər də zaman keçdikcə bu heykəllərə sitayiş edərək onu tanrılaşdırmışdı (Allahı bunlardan uzaq tuturuq). Halbuki Allahın vəhyinə əsaslanan bütün dinlər Allahı bir və tək olaraq tanıyır, tövhid inancını əsas kimi qəbul edirlər. Allah Quranda **"Sizin tanrınız yalnız bir olan Allahdır. Yalnız Ona təslim olub itaət edin"** deyə buyurur ("Həcc" surəsi, 34).

Buddistlər sayaq Allahı inkar edib hamımız kimi bir insan olan Buddanı bütləşdirmək Quranda **"Allaha şərik qoşmaq"** şək-

lində tərif edilir. Şirk isə Allahın yüzlərlə ayə ilə insanlara xatırlatdığı çox böyük bir günahdır. Allah ayədə belə buyurur:

**"Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs əlbəttə, böyük günah etmiş olur" ("Nisa" surəsi, 48).**

Şirk kəlməsinin mənası "şəriklik"dir. Bu ifadə Quranda Allaha şərik qoşmaq mənasında işlədilir. Şirk hər hansı bir şeyə, hər hansı bir adama ya da bir anlayışa Allahla bərabər və ya Allahdan daha çox dəyər vermək deməkdir. Müşrik şirk qoşduğu varlığı Allahdan üstün tutur. Bütün sevgisini, hörmətini, marağını, heyranlığını ona istiqamətləndirir. Bu yanlış qənaət Quranda "Allahdan başqa tanrı qəbul etmək" şəklində tərif edilir.

İslam dini tövhid inancı üzərində qurulub. Allah "Lə iləhə illəhu" ("Ondan başqa tanrı yoxdur") ifadəsini Quranda dəfələrlə təkrar etmiş və onu iman gətirməyin ilk şərti olaraq müəyyənləşdirmişdir. Buna görə də şirki ən ümumi mənada "Lə iləhə illəhu" həqiqətindən azmaq, Allahdan başqa "güc və qüdrət sahibləri" olduğu kimi yanlış bir anlayışa düşmək şəklində tərif edə bilərik. Rəbbimiz Quranda Özünü bizə əksər sifəti ilə tanıdır və Ondan başqa tanrı olmadığını bir çox ayədə bildirir. Allah üstün adlarını "Həşr" surəsində bu cür xəbər verir:

**"O, Özündən başqa heç bir tanrı olmayan, gizlini də, aşkarı da bilən Allahdır. O, rəhmlidir, mərhəmətlidir! O, Özündən başqa heç bir tanrı olmayan, ixtiyar sahibi, müqəddəs olan, salamatlıq, əmin-amanlıq bəxş edən, göz-qulaq olub qoruyan, yenilməz qüdrət sahibi, məcbur etməyə qadir olan, böyük olan Allahdır. Allah Ona qoşduqlarından ucadır. O, yaradan, yoxdan var edən, surət verən Allahdır. Ən gözəl adlar ancaq Ona məxsus-**

**dur. Göylərdə və yerdə nə varsa, Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət, hikmət sahibidir!" ("Həşr" surəsi, 22-24).**

Allah sifətlərini insanların üzərində təcəlla etdirir. Məsələn, Allah sonsuz mərhəmət sahibidir, insanlarda "mərhəmət edən" sifəti təcəlla edər və Allahın sifətləri həmin insanlarda görünər. Ancaq bu insanlar öz səyləri ilə, özlüklərində bu xüsusiyyətlərə malik deyillər. Yaratmaq gücünə sahib olan və Allahın sifətlərinə özlüyündə sahib ola biləcək hər hansı bir varlıq yoxdur və bunu etmək "Allahdan başqa tanrılar qəbul etmək" mənasına gəlir. Buddistlər kimi Allaha şərik qoşan insanlar isə Allahın bəzi sifətlərini başqa varlıqlara ithaf edirlər. Məsələn, Allah "hər şeyi haqqı ilə görən, gizlinin gizlinini biləndir". İnsan gizli bir iş edərkən, gizlənərkən, ətrafında heç kim yoxdursa, heç bir insan tərəfindən görülmədiyini zənn edərkən Rəbbimiz onu görür, bütün etdiklərini bilir. Allah kainatdakı hər hadisəni ən incə təfərrüatına qədər görür və bilir. Bu olayların hamısını yaradan Allahdır. Allah bir ayədə: **"Gözlər Onu dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cismlikdən uzaqdır), hər şeydən xəbərdardır!"** buyurur ("Ənam" surəsi, 103).

İnsan harada olursa-olsun Allah mütləq onunla birlikdədir. Hazırda da Allah sizin bu sətirləri oxuduğunuzu görür və nələri fikirləşdiyinizi bilir. Allah insanları hər yerdə gördüyünü belə xəbər verir:

**"Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın!" ("Yunus" surəsi, 61).**

**"Göyləri və yeri altı gündə xəlq edən, sonra ərşə istiva edən Odur. O, yerə girəni də, çıxanı da, göydən enəni**

**də, qalxanı da bilir. Siz harada olsanız, O, sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!" ("Hədid" surəsi, 4).**

Buddistlərin bütpərəst anlayışları isə bir çox məsələdə olduğu kimi bu məqamda da ortaya çıxır. Buddistlər Buddanı "hər şeyi görən" və "hər şeyi bilən" kimi qəbul edir. Buddizmin hakim olduğu ölkələrin dörd bir tərəfində nəzərə çarpan Budda heykəllərinə, məbədlərin üzərinə yerləşdirilən Buddanın gözləri həmişə bu azğın anlayışı ifadə edir. Buddistlər hər an Buddanın onları gördüyünü düşünür, buna görə də evlərini Buddanın heykəlləri ilə doldurur və onların qarşısında hörmətlə əyilirlər. Buddanın daşdan, taxtadan düzəldilmiş gözləri ilə onları görəcəyinə, taxtadan hazırlanmış qulaqları ilə onları eşidəcəyinə inanaraq həm çox böyük bir günah işlədir, həm də məntiqə zidd hərəkət edirlər.

Allah müşrik qövmlərin bu böyük aldanışını və özlərinə tanrı qəbul etdikləri varlıqların gücünün heç nəyə çatmayacağını bizə **"Məgər onların yeriyən ayaqları, ya tutan əlləri, ya görən gözləri, yaxud eşidən qulaqları var?!"** ("Əraf" surəsi, 195) ayəsində bildirir.

Unutmaq olmaz ki, şirk ancaq maddi bütlərə sitayiş etməkdən də ibarət deyil. Bir insanı Allahın ona bu dünyada müvəqqəti olaraq və imtahan məqsədi ilə verdiyi imkanlara görə gözündə böyütmək, bu gücü ona aid imiş kimi, ondan qaynaqlanmış kimi görmək də onu tanrılaşdırmaq mənasına gəlir. Həmçinin Allah bir ayəsində belə buyurur:

**"İnsanların içərisində Allahdan qeyrilərini şərik qoşub onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Əgər zülm edənlərin vaxtında görəcəkləri əzabdan xəbərləri olsaydı, onlar bütün qüdrətin Allaha məxsus ol-**

**duğunu və Allahın əzabının şiddətli olacağını bilərdilər" ("Bəqərə" surəsi, 165).**

Budda da Allahın yaratdığı və dünyada imtahana çəkdiyi aciz bir dindir. Onun şəxsinə aid bir gücü, iradəsi, insanlara təsir etmək qabiliyyəti yox idi. Allahın istəyi ilə danışa bilmiş, Allahın həyat bəxş etməsi ilə və Onun müəyyən etdiyi taleyə görə yaşamışdır. Allahın "Şuara" surəsində xəbər verdiyi Hz.İbrahimin duası insanın Allahın mütləq qüdrəti qarşısındakı acizliyini çox gözəl şəkildə ifadə edir:

**"Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir. Məni öldürəcək, sonra yenidən dirildəcək Odur. Və qiyamət günü xətamı bağışlayacağına ümid etdiyim də Odur!" ("Şuara" surəsi, 78-82).**

Budda da Allahın müəyyən etdiyi bir taleyə uyğun yaşamış və Allahın "ol" deməsi ilə əcəli gəlib çatanda vəfat etmişdir. Heç vaxt yaddan çıxarılmamalıdır ki, Allah istəməsə, bir insanın iman gətirməsi mümkün deyil. Hidayəti verən Allahdır. Yenə Allah istəməsə, heç bir insanın başqa insanları doğru yola sövq etməsi də mümkün deyil. İnsanları doğru və gözəl olana yönəldən də Allahdır. Edilən dəvətlər, aparılan təbliğatlar insanların ürəyinə ancaq Allahın bunu istəməsi ilə təsir edir. Həqiqətdə böyük qəbul edilməsi, heyran olunması, kömək istənilməsi lazım gələn yeganə mütləq güc Allahdır. Allah bu həqiqəti Quranda belə xəbər verir:

**"Onlar Allahı layiqincə qiymətləndirmədilər. Həqiqətən Allah yenilməz qüvvət, qüdrət sahibidir!" ("Həcc" surəsi, 74).**

Allah Quranda bütlərə sitayiş edən bir çox xalqın nümunəsini verir. Hz.İbrahimin müşrik xalqı da bunlardan biridir. Onlar da

insanabənzər heykəllər yonub bunlara ibadət etmiş, nəsihətlərə qulaq asmamışdılar. Rəbbimiz ayələrdə belə buyurur:

**"Atasına və tayfasına: "Sizin tapınıb durduğunuz bu heykəllər nədir?" dediyi zaman onlar: "Biz atalarımızı onlara ibadət edən gördük!" deyə cavab vermişdilər" ("Ənbiya" surəsi, 52-53).**

Ayələrdən də aydın olduğu kimi, bu cür sitayişlər insanlara atalarından miras qalmışdır. Dolayısı ilə bütə sitayiş etmək həqiqətdə nə qədər məntiqsiz bir hərəkət olsa da uşaqlıq yaşlarından qəbul edilən və öyrədilən təlimlər nəticəsində ən müasir cəmiyyətlərdə də yadırğanmayan sosial bir davranış tərzi olur.

Allah Quranda Səba xalqının da eynilə Hz.İbrahimin xalqı kimi bütpərəst olduğunu bildirir:

**"Mən onun və tayfasının Allahı qoyub günəşə sitayiş etdiklərini gördüm. Şeytan əməllərini onlara gözəl göstərmiş, onları doğru yoldan sapdırmışdır. Buna görə də haqq yolu tapa bilmirlər. Göylərdə və yerdə pünhan olanı aşkara çıxaran, onların gizlində və aşkarda etdikləri hər şeyi bilən Allaha səcdə etməsinlər deyə belə etmişdilər" ("Nəml" surəsi, 24-25).**

Bu ayələrdə diqqətimizi çəkən başqa mühüm bir məsələ isə bu bütpərəst dini insanlara bər-bəzəkli göstərənin, doğru yoldan uzaqlaşdıranın şeytan olmasıdır. Yəni Allahın vəhyinə qarşı gələn bütün bütpərəst dinlər həqiqətdə şeytanın vəhyinə əsaslanır. Şeytan isə bunu insanlar "Allaha səcdə etməsinlər deyə" edir. Yoxsa şeytan da Günəşin sitayiş edilməli olan bir tanrı olmadığını, bütün kainat kimi Günəşin də Yaradanının Allah olduğunu bilir. Allahın Quranda bütpərəstliklə bağlı verdiyi nümunələrdən biri də İsrail oğulları ilə əlaqədardır. Hz.Musa ilə birlikdə fironun xalqından qurtulan İsrail oğulları səyahət əsnasında bütə ibadət edən bir xalq-

la qarşılaşmış və Musa peyğəmbərdən onlara da belə bir büt düzəltməsini xahiş etmişdilər. Allah bu hadisəni Quranda belə xəbər verir:

**"Biz İsrail oğullarını dənizdən keçirdik, sonra onlar öz bütlərinə tapınan bir tayfaya uğradılar. İsrail oğulları dedilər: "Ya Musa! Bizə onların sitayiş etdikləri bütlər kimi bir büt düzəlt!" Musa belə cavab verdi: "Siz doğrudan da cahil bir tayfasınız! Şübhəsiz ki, bunların tapındıqları bütlər məhvə məhkumdur, etdikləri əməllər isə puçdur!" ("Əraf" surəsi, 138-139).**

Aydın olduğu kimi, İsrail oğulları cahil kimi hərəkət edib gözləri ilə gördükləri, qarşısında əyiləcəkləri, bəlkə də dəbdəbəli mərasimlər təşkil edəcəkləri bir tanrı istəyirlər. Bu vəziyyət onların Allahın ucalığını dərk edə bilməməsinin və başa düşməməsinin bir göstəricisidir. Hz.Musa onlara həqiqəti açıqladığı halda peyğəmbərləri yanlarından ayrılan kimi tələsik özlərinə bütlər düzəltmişdilər. Bu, çox böyük azğınlıqdır. Həmçinin onların bundan dərhal peşman olduqlarını Allah Quranda belə xəbər vermişdir:

**"(Tur dağına gedən) Musanın ardınca tayfası öz bəzək-düzək şeylərindən (canlıymış kimi) böyürtüsü olan bir buzov heykəli düzəltdilər. Məgər buzovun onlarla danışmadığını, onlara bir yol göstərə bilmədiyini görmədilərmi? Bununla belə ona tapınıb özlərinə zülm eləyən oldular. Elə ki (peşmançılıqdan başları) əlləri arasına düşdü və haqq yoldan azmış olduqlarını gördülər, (əməllərindən çox məyus olub) dedilər: "Əgər Rəbbimiz bizə rəhm etməsə və bizi bağışlamasa, mütləq ziyana uğrayanlardan olacağıq!" ("Əraf" surəsi, 148-149).**

Ancaq Allahın buzovu tanrı kimi qəbul edənlərə cavabı belədir:

**"Şübhəsiz ki, buzovu (tanrı) qəbul edənlərə Rəbbindən bir qəzəb yetişəcək və onlar dünyada zillətə düçar olacaqlar! Biz iftira yaxanları belə cəzalandırırıq!" ("Əraf" surəsi, 152).**

Yuxarıdakı ayədən də aydın olur ki, Allah Ona şirk qoşanları istəsə bağışlayır, istəsə cəzalandırır. Çünki ayədə də ifadə edildiyi kimi, Allaha şirk qoşanlar əslində yalan uydururlar. Bir və tək olan Tanrının Allah olduğu aydın bir həqiqət olduğu halda onlar saxta tanrılar qəbul edirlər. Bu uydurma tanrıların qarşısında bellərini büküb əyilmək isə Allaha qarşı edilmiş çox çirkin və böyük bir günahdır. Allah başqa günah və səhvləri bağışlaya biləcəyini, ancaq şirki heç vaxt bağışlamayacağını Quranda belə bildirmişdir:

**"Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs əlbəttə, böyük günah etmiş olur" ("Nisa" surəsi, 48).**

## Allahdan başqa tanrı yoxdur

İslamın əsası Allahın varlığını başa düşmək və Ondan başqa heç bir tanrının olmadığını qavramaqdır. Allah İslamın ilahi mənbəyi olan Quranda dinin əsası sayılan ən böyük həqiqəti belə bildirir:

**"Sizin tanrınız bir olan Allahdır, Ondan başqa tanrı yoxdur. O, rəhmlidir, mərhəmətlidir" ("Bəqərə" surəsi, 163).**

Həqiqətdə mütləq var olan Allahdır, digər hər şey isə Onun yaratdıqlarıdır. İçində yaşadığımız kainatı Rəbbimiz yaratmışdır.

Kainat yaradılmamışdan əvvəl isə maddi mənada heç bir şey yox idi. Canlı və cansızlar varlıq halına gətirilməmişdi. Sözün əsl mənasında bir yoxluq mövcud idi. Kainatın yaradıldığı an zamanı, məkanı və maddəni bunlara tabe olmayan və sonsuzluğun sahibi Əzəli və Əbədi olan Allah yaratdı. Allah bir Quran ayəsində kainatdakı qüsursuz yaradılışı belə xəbər verir:

**"Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. Bir işin yaranmasını istədiyi zaman ona yalnız "Ol!" deyər, o da dərhal olar" ("Bəqərə" surəsi, 117).**

Bu anda meydana gələn hər şeyi, hər an Allah yaradır. Yağan hər yağış damcısını, anadan olan hər uşağı, yarpaqlarda baş verən fotosintezi, canlıların bədənindəki hərəkətləri, qalaktikalardakı ulduzların hərəkət istiqamətlərini, cücərən hər toxumu və bildiyimiz-bilmədiyimiz hər hadisəni davamlı şəkildə Allah yaradır. Kainatdakı böyük-kiçik hər təfərrüat Onun əmri ilə işləyir:

**"Yaxud məxluqatı öncə yaradan, (öldükdən) sonra onu yenidən dirildən, sizə göydən, yerdən ruzi verən kimsə?! Məgər Allahla yanaşı başqa tanrımı var?" De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!" ("Nəml" surəsi, 64).**

Canlı hüceyrələrindən kainatdakı ulduzlara qədər bütün sistemlər mükəmməl bir nizam içində nöqsansız olaraq fəaliyyət göstərir. Bu heyrətamiz nizama hər an nəzarət edilir, nizamlanır, böyük bir ahənglə davam etdirilir. Çünki Rəbbimizin sonsuz elmi bütün varlıqları əhatə etmişdir:

**"Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif,**

**yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!" ("Mülk" surəsi, 3-4).**

Bütün bu həqiqətlərə baxmayaraq Allahın yaradılışını rədd edib bu xüsusiyyəti Onun yaratdığı varlıqlara şamil etmək çox böyük ağılsızlıqdır. Kainatdakı mükəmməl nizam və canlılardakı qüsursuz mütənasiblik bütün bunların hamısının bir Yaradanın yaratdığını göstərir. Allah bir Quran ayəsində Özündən başqa heç bir tanrı olmadığını və Ondan başqa heç bir varlığın kainatda gücü olmadığını belə xəbər verir:

**"Allah heç bir övlad gətirməmişdir. Onunla yanaşı heç bir tanrı yoxdur. Əgər belə olsaydı, onda hər bir tanrı əlahiddə öz yaratdıqları ilə gedər və onların bir qismi digərindən üstün olmağa çalışardı. Allah müşriklərin Ona aid etdikləri sifətlərdən tamamilə kənardır!" (" Muminun" surəsi, 91).**

Allah hər şeyi əhatə etmişdir. O, əsl və tək mütləq varlıqdır. Bütün varlıqlar Ona boyun əymişdir. Allahın nəzarət etmədiyi, yoxlamadığı heç bir varlıq və canlı yoxdur. Hər şeyə gücü çatan Allah hər cür zəifliklərdən və acizliklərdən uzaqdır.

**"Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!" ("Bəqərə" surəsi, 255).**

# BUDDİZMİN BATİL İNANCLARI

Buddizmin batil inancları ölkədən-ölkəyə böyük fərqlərə malikdir. Bunun səbəbi isə bu dinin 2500 ildir yayıldığı ölkələrin milli dini, ənənələri və yerli mədəniyyəti ilə qarışmasıdır. Bu gün Yaponiyada, Çində, Şri-Lankada, Tibetdə, Vyetnamda və Amerikada olan buddizm bir-birindən çox fərqlidir.

Tarixi mənbələrdən öyrəndiyimizə görə, Budda buddizmin əsas inanc və ibadətlərini insanlara öyrədərkən həmişə şifahi üslubdan istifadə etmişdir. Tədqiqatçılar da onun özündən sonra heç bir yazılı mətn qoymadığını bildirirlər. Buddistlər isə onun vəzlərinin 400 ilə qədər şifahi surətdə nəsildən-nəslə ötürüldüyünə və axırda "Pali-Kanon" adlı bir kitabda toplandığına inanırlar. Ancaq tədqiqatçıların gəldiyi müştərək fikrə görə, bu sözlərin əksəriyyəti Buddaya aid deyil, həmin sözlər bəzi əlavələrlə bugünkü hala gəlmişdir. Dolayısı ilə heç bir yazılı mətnə əsaslanmayan buddizm aradan keçən minlərlə il boyu çox böyük dəyişikliklərə məruz qalmış, təhrif edilmiş, əlavə və ixtisarlarla yeni-yeni şəkillərə salınmışdır.

Buddizmin müasir dövrdə müqəddəs qəbul etdiyi kitabın adı "üç səbət" mənasına gələn "Tipitaka"dır. Bu mətnlər Pali dili ilə yazılmışdır. "Tipitaka"nın nə vaxt yazıldığı isə qətiyyən məlum deyil. Ancaq onun bugünkü formaya eramızdan əvvəl I əsrdə Seylonda gətirildiyi qənaəti var. "Tipitaka" mətnlərinin hissələri bu formadadır:

1. Vinaya Pitaka: "Sanha" adlanan bu hissə özündə rahib və rahibələrlə bağlı qaydaları, bunların necə icra ediləcəyini ehtiva

edir. Bu hissədə həmçinin rahib olmayan buddistlərlə bağlı mövzular var.

2. Sutta Pitaka: Buddanın fikirlərini açıqladığı sözlərinin əksəriyyəti bu hissədədir. Buna görə də bu hissəyə "doktrina (dhamma) səbəti" də deyilir. Bu sözlər əsrlər boyu şifahi şəkildə nəql edilmiş, başqa əfsanələrlə, batil inanclarla bir-birinə qarışmışdır.

3. Abhidhamma Pitaka: Buddanın vəzlərinin izahları və buddizmin fəlsəfəsi bu hissədə yerləşir.

Günümüzdəki buddist rahiblər bu mətnlərin müqəddəsliyinə inanır, ibadətlərini bu kitablara görə yerinə yetirir və bütün həyatlarını bu kitablara uyğun olaraq tənzimləyirlər. Bu mətnlərdə Budda sanki bir tanrı kimi göstərilmişdir. (Allah bütün qüsurlardan uzaqdır). Buna görə də günümüzdəki buddistlər Buddanın heykəlləri qarşısında səcdə edir, bu heykəllərə müxtəlif yeməklər təqdim edir, onlardan kömək istəyirlər. Halbuki bu, çox şüursuz və məntiqsiz bir hərəkətdir. Daşdan, bürüncdən, tuncdan düzəldilmiş bu heykəllərin onları eşidəcəyinə, kömək edəcəyinə inanan buddistlər çox böyük yanlışlıq içindədir. Kitabın sonrakı fəsillərində daha ətraflı olaraq görəcəyimiz bu bütpərəst hərəkətlərlə yanaşı onu da biləcəyik ki, buddizm kainatın necə ortaya çıxması, dünyadakı qüsursuz sistemlərin necə fəaliyyət göstərməsi kimi mövzulara toxunmayan, ancaq insan üzərində toplanan sirli bir təlim halına gəlmişdir.

## Buddizm ateist bir dindir

Buddizm Allahın varlığını inkar edən, ancaq insanın sadəcə olaraq bəzi əxlaqi yönlərdən inkişafını və dünyaya aid iztirablar-

dan qurtulmasını əsas sayan ateist bir fəlsəfədir. Bu din heç bir məntiqi və elmi əsası olmayan karma və reenkarnasiya etiqadı (insanın davamlı şəkildə dünyaya gəldiyi, əvvəlki həyatındakı davranışlarına görə sonrakı həyatının formalaşması düşüncəsi) üzərinə qurulmuşdur. Buddist abidələrində bir Yaradanın varlığına, kainatın və canlıların necə meydana gəldiyinə heç bir şəkildə toxunulmadığı kimi heç bir buddist mətnində də kainatın yoxdan necə var edildiyi, canlıların necə ortaya çıxdığı və dünyadakı bənzərsiz yaradılış dəlillərinin necə var olduğu izah edilmir. Buddistlərə görə, bu mövzuda fikirləşmək də lüzumsuzdur. Buddist mətnlərinə görə, həyatda mühüm olan yeganə məsələ arzuları yox etmək, sıxıntılardan azad olmaq və Buddaya hörmət etməkdir. Dolayısı ilə buddizm əslində çox məhdud görüşlü bir inancdır. İnsanı "necə yaradıldım, kainat və canlılar necə meydana gəldi" kimi əsas sualların üzərində düşünməkdən, bunları araşdırmaqdan uzaqlaşdırır və onu ancaq mövcud həyatın dar qəliblərinə salır.

## Buddizm təzyiq edən və kölələşdirən bir dindir

Buddizmin insanın bütün arzularını yox etməyə çalışması isə məhdud dünyagörüşünün başqa bir cəhətidir. Allah dünyadakı nemətləri insanların onlardan istifadə etməsi, zövq alması və əvəzində də Ona şükr etməsi üçün yaratmışdır. Buna görə də İslam insanlara arzularını içlərində boğmağı, özlərinə əziyyət və iztirab vermələrini əmr etməz. Əksinə, Allah insanlara dünyadakı gözəlliklərdən (çirkin və pis olan haram davranışlardan başqa) istifadə etmələrini, özlərinə mənasız yerə məhdudiyyət qoymamalarını, özlərinə əziyyət verməmələrini əmr edir. Buna görədir ki, Allah Pey-

ğəmbərimizin (s.ə.v.) vəsflərini qeyd edərkən Onun insanların " üstlərindəki buxovları açdığını" xəbər vermişdir:

**"O kəslər ki, əllərindəki Tövratda və Incildə yazılmış gördükləri rəsula - ümmi peyğəmbərə tabe olurlar. Onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz nemətləri halal, murdar şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar. Ona iman gətirən, yardım göstərən və onunla endirilmiş nurun ardınca gedənlər - məhz onlar nicat tapanlardır!" ("Əraf" surəsi, 157).**

Qısası, İslam azadlıq verir. İnsanın mənasız adət-ənənələrdən, qadağalardan, cəmiyyətin təzyiqlərindən, "başqaları nə deyər" qorxusundan qurtarıb ancaq Allahın razılığını qarşısına məqsəd qoyan səadətli həyat yaşamağa dəvət edir. Həmçinin Peyğəmbərimiz (s.ə.v.) də əksər hədislərində insanlara dini asanlaşdırmağı əmr etmişdir:

"Sevindirin, nifrət etdirməyin; asanlaşdırın, çətinləşdirməyin".[1]

"Asanlaşdıranlar olaraq göndərildiniz, çətinləşdirənlər olaraq göndərilmədiniz".[2]

Buddizm isə insanları dumanlı monastırlara, əzab və səfalətlə dolu olan bir həyata sürükləyən, kölələşdirən bir inancdır. Allahın insanlar üçün yaratdığı nemətləri (gözəl yeməkləri, təmizliyi, rahatlığı) qəribə bir formada qadağan edir, əzab çəkməyi bir məziyyət olaraq qəbul edib onlara tabe olanlara əziyyət çəkməyi nəsihət edir.

Məsələn, buddist rahiblər üçün həyat müxtəlif çətinliklərlə doludur. Onlar işləyə və mülk sahibi ola bilməzlər. Gündəlik yeməklərini əllərində bir qab insanların arasında gəzib dilənərək tə-

min etmək məcburiyyətindədirlər. Hətta buna görə buddist rahiblər xalq arasında "bhikkus" (dilənçilər) adı verilmişdir. Evlilik və hər cür ailə həyatı da rahiblərə qadağandır. Hər rahibin ancaq bir paltarı ola bilər. Bu da keyfiyyətsiz və sarı parçadan olmalıdır. Bu geyimdən başqa yeganə əşyaları da yatmaq üçün istifadə edə biləcəkləri bərk bir yataq, saçlarını qırxmaq üçün ülgüc, iynə, sap və dilənmək üçün bir qabdır. Gündə bircə dəfə (bir öyün) yemək yeyirlər. Bu da günortadan əvvəl olmalıdır. Günortadan sonra ertəsi günə qədər nəsə yemək qadağandır. Yeməkləri də əsasən çörək, düyü və göyərtilərdən ibarət olur. İçdikləri isə su və ya düyü suyudur. Başqa yeməklər dəbdəbəli sayılır və qadağandır. Hətta dərmanlar da yasaqdır. Ət, balıq və meyvə kimi qidaları ancaq xəstə olarlarsa və o da özlərindən yüksəkdə dayanan rahibin izni və dəvəti ilə yeyirlər. Qısası, buddizm bir növ "özü-özünə əziyyət vermək" dinidir.

Bu vəziyyət Allahın Quranda bildirilən **"Həqiqətən Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!"** ("Yunus" surəsi, 44) ayəsinin də bir təcəllasını təşkil edir. Halbuki Allah iman gətirib Ona təslim olanlara həm bu dünya həyatında, həm də axirətdə çox gözəl bir həyat vəd etmişdir. Həm dünyadakı bütün nemətlər, həm də axirətdəki sonsuz nemətlər onlarındır:

> **"De: "Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram buyurmuşdur?" De: "Bunlar dünyada iman gətirənlər üçündür, qiyamət günündə isə yalnız möminlərə məxsusdur". Biz ayələrimizi anlayıb bilən bir tayfaya belə ətraflı izah edirik" ("Əraf" surəsi, 32).**

Buddizmin başqa qaranlıq yönlərindən biri də onun bədbinliyidir. İnananlarına vəd etdiyi "Nirvana" bütün dünyaya bədbin

baxan melanxolik bir zehniyyətin həyatla olan bütün əlaqələrini şizofrenik bir şəkildə kəsməsindən başqa bir şey deyil. "Katolik Ensiklopediyası" ("The Catholic Encyclopedia") buddizmin bu xüsusiyyətini belə izah edir:

> "Buddizmin başqa ölümcül səhvi yanlış pessimizmdir. Sağlam və güclü bir zehin (buddizmin) həyatı yaşamağa dəyər görməyən və hər cür şüurlu mövcudiyyəti pis qəbul edən yaxınlaşmasına qarşı çıxacaqdır. Buddizm təbiətin təməl xüsusiyyəti ümid və sevinc olan səsi tərəfindən təkzib edilir. Əslində (buddizm) şüurlu həyatın mükəmməlliyinə qarşı bir növ etirazdır. Buddizmin ən böyük istəyi bütün canlıları "Nirvana" adlanan şüursuz həyat modelinə aparmaq və beləliklə, təbiətdəki mükəmməlliyi yox etməkdir. Dolayısı ilə buddizm təbiətə qarşı günah işlədir və bunun nəticəsində fərdə qarşı da cinayət işləyir. (Buddizmə görə), bütün məqbul arzular basdırılmışdır. Hər cür məsum istirahət və əylənmək qadağandır. Musiqidən həzz almaq yasaqdır. Təbiət elmləri haqqında tədqiqat aparmaq təhqiramiz iş kimi qəbul edilir. İnsanın zehni ancaq buddist mətnləri əzbərləməyə və buddist metafizikası haqqında işləməyə cəmlənməlidir. Buddizmin dünyada həyata keçirmək istədiyi ideal mövcud olan hər şeyə qarşı laqeydlikdir".[3]

Halbuki İslam insanlara laqeydliyi deyil, əksinə, canlılığı, sevinci və hərəkiliyi gətirir. İslam tərbiyəsi alan bir insan ətrafında baş verən hadisələrə qarşı da həssas olur. Dünyanı buddizmdə olduğu kimi üz çevrilməsi vacib olan bir xaos kimi deyil, Allahın Quranda tərif etdiyi gözəl əxlaqı tətbiq etmək üçün yaradılmış bir imtahan yeri olaraq görür. Buna görədir ki, İslam tarixi son dərəcə

adil və müvəffəqiyyətli, xalqa xoşbəxt və sevincli bir həyat bəxş edən idarəçilərlə doludur. Buddizm isə ancaq özləri özlərinə əziyyət verən, xalqlarını da özləri ilə birlikdə passivliyə və dolayısı ilə kasıbçılığa aparan, hətta qarşılarına çıxan problemlər qarşısında yeganə çarəni özünü yandırmaqda görən zavallı insanlar "istehsal" edir. Bu, şeytanın insana qarşı oynadığı oyunlardan biridir.

## Buddizm bütpərəst bir dindir

Buddizm paqan bir dindir, yəni bütpərəstdir. Bu gün buddizmin müxtəlif məktəblərə ayrıldığı və Buddaya sitayiş etməyin ancaq bəzi məktəblərə məxsus olduğu bildirilir. Lakin Buddanın yanılmayan bir yolgöstərən olaraq qəbul edilməsi də - bu, bütün buddist məktəblərinə hakim olan bir aldanışdır - bu dinin Buddanı bütləşdirdiyini göstərir.

Tarixi mənbələrə görə, Buddanın vəfatından bir müddət sonra buddist rahiblər tərəfindən "Buddanı müqəddəsləşdirmək" fəaliyyəti başladıldı. Hər yerdə onun heykəlləri qoyuldu. "Nirvana"nın onun bədənində formalaşdığı yönündəki batil bir inanc qüvvəyə mindi. Buddist rahiblərin Buddaya qarşı həddindən artıq hörmət anlayışları bir müddət sonra Buddaya tapınma və ona sitayiş etmək formasını çevrildi. Buddizmin güclü olduğu ölkələrin dörd bir tərəfi Buddanın nəhəng ölçülərdəki heykəlləri ilə bəzədildi. Günümüzdə də Asiyadan Amerikaya qədər bir xeyli ölkədə Budda heykəllərinə, üstündə Buddanın gözlərinin çəkildiyi məbədlərə rast gəlmək mümkündür. Əvvəl də qeyd edildiyi kimi, bu gözlərlə insanlara Buddanın hər yeri gördüyü və insanlara həmişə nəzarət etdiyi mesajı verilir. Buna görə də insanlara həyatın hər anını

Buddanı fikirləşərək keçirmələri fikri aşılanır. Minlərlə il əvvəl ölən bir insanın hələ də ona inananları gördüyünü, qoruduğunu, yalvarışlarını eşitdiyini düşünməyin necə əsassız və cəfəng bir inanc olması isə aşkardır. Buddistlərin dərk etməkdə aciz qaldığı əsl həqiqət isə budur ki, bütün insanlar kimi Buddanı da yaradan aləmlərin Rəbbi olan Allahdır. Allah gizlinlərin gizlinini bilən, hər şeyi əhatə edəndir.

**Buddizm və karma etiqadı**

Karma təlimi həyata keçirilən bütün işlərin nəticəsinin gec-tez həmin adama qayıdacağını və bunun guya həmin insanın sonrakı dünya həyatına təsir edəcəyini qəbul edir. Bu batil inanca görə, insan davamlı olaraq yenidən dünyaya gəlir və hər sonrakı həyatında əvvəlki həyatında etdiklərinin nəticəsini alacaq. Allahın varlığını inkar edən buddizmə görə də hər şeyi idarə edən yeganə güc karmadır.

Sanskrit dilində bir kəlmə olan "karma" "hərəkət, fel" mənasına gəlir və bir "səbəb-nəticə qanunu" olaraq göstərilir. Karma inancını müdafiə edənlərə görə, bir insan keçmişdə nə edibsə, bu, gələcəkdə mütləq onun qarşısına çıxacaq. Keçmiş insanların əvvəlki həyatı, gələcək isə öülümündən sonra başlayacağı iddia edilən yeni həyatdır. Buna görə bu gün kasıb olan bir insanın əvvəlki həyatında pisliklər etdiyinə və bunun əvəzini bu həyatında kasıbçılıqla aldığına inanılır. Bu batil inanc pis bir insanın sonrakı həyatında bitki və ya heyvan ola biləcəyi kimi iddialara da yer verir.

Karma inancının zərərli nəticələrindən biri insanların acizliklərinin, kasıblıqlarının və zəifliklərinin onların əxlaqi qüsurları-

nın bir nəticəsi olan cəza kimi göstərməsidir. Karma inancına görə, əgər bir insan kasıb və ya şikəstdirsə, bunun səbəbi əvvəlki həyatında etdiyi pisliklərdir və dolayısı ilə yenidən dünyada bu cür yaşamağa layiqdir.

Bu batil inanc əsrlər boyu Hindistanda "kasta sistemi" kimi tanınan çox ədalətsiz bir cəmiyyət quruluşunun olmasının da ən mühüm səbəbidir. (Buddizmin əslində Hinduizmdən törədiyi, karmanını da Hinduizmdən gəldiyi yaddan çıxarılmamalıdır). Karma inancına görə, kasıb, xəstə, şikəst insanlar alçaldılmış və onlar da kasta sistemində əzilmişlər. Sistemin ən yüksək pilləsində olan varlılar və idarəçilər sinfi isə bu xüsusiyyətlərini təbii bir haqq olaraq qəbul etmişlər. Halbuki İslamda insanların zəiflikləri bir günah deyil, Allahın göndərdiyi bir imtahan olaraq qəbul edilir. Başqa insanların ehtiyac içində olan bu insanlara kömək etməsi çox mühüm bir vəzifə olaraq əmr edilir. Buna görədir ki, İslam - və İslamla eyni Ilahi mənbədən gələn, lakin sonradan təhrif edilən xristianlıq və yəhudilik - çox güclü bir sosial ədalət anlayışına sahibdir. Buddizm və Hinduizm kimi karma inancları isə tam əksinə, sosial ədalətin qarşısında böyük bir maneədir.

Karmanın əsası reenkarnasiya inancı, yəni insanların eyni ruhla davamlı olaraq müxtəlif bədənlərlə dünyaya yenidən gəldiyi düşüncəsidir. Karma bu inanca bir də "hər həyatın sonrakına təsir etdiyi" fərziyyəsini əlavə etmişdir. Ancaq bu inanc bircə sualla dağılmağa məhkumdur. İddia edilən bu karma inancı necə işləyəcəkdir? Buddizm Allahın mövcudluğunu qəbul etmir. Elə isə insanları əvvəlki həyatlarına görə kim hesaba çəkib buna görə təzə bir bədənlə dünyaya göndərəcəkdir? Bu sualın cavabı yoxdur. Buddistlər bunun bir təbiət qanunu kimi "öz-özünə" işlədiyinə inanırlar. Halbuki təbiət qanunlarını yaradan da Allahdır. İnsanların həyatı boyu tutduğu əməllərə nəzarət edəcək, bunların hesabatını aparacaq,

sonra onları öləndən sonra bu hesaba görə sorğu-suala tutacaq, bunun nəticəsində onlara yeni bir həyat tərzi müəyyənləşdirəcək, onları bu yeni həyat tərzinə uyğun olaraq yenidən yaradacaq və bu ssenarini dünyadakı milyardlarla insan (və heyvan) üzərində qüsursuz şəkildə həyata keçirə biləcək bir "təbiət qanunu" yoxdur. Ortada belə bir təbiət qanunu olmadığına görə belə bir mərhələ də əlbəttə ki, mövcud ola bilməz. Reenkarnasiya inancının heç bir məntiqli yönü olmasa da onun dünyanın dörd bir yanında bu qədər tərəfdarının olmasının əsas səbəbi dinə inanmayan, axirətin varlığını inkar edən və ölümdən qorxan insanların reenkarnasiyanı bu qorxularını məğlub etmək üçün bir çıxış yolu kimi qəbul etməsidir. Çünki reenkarnasiya inancının əsasında da - karmada olduğu kimi - ölümdən qorxmamağın lazım gəldiyi və insanın yenidən anadan olmaqla arzularına çata biləcəyi yönündə əslində həqiqətdən uzaq bir təskinlik durur.

Reenkarnasiya bir təbiət qanunu kimi öz-özünə ola bilməyəcəyinə görə bunun ancaq fövqəltəbii bir yaradılışla təmin edilə biləcəyi aydındır. Ancaq Qurana baxanda reenkarnasiyanın bir xurafat olmasının şahidi oluruq. Allahın insanlara yolgöstərən olaraq göndərdiyi Kitab reenkarnasiyanı açıq-aşkar təkzib edir.

## İslama görə reenkarnasiya

Bir müsəlmanın hər məsələdə olduğu kimi karma fəlsəfəsinə baxışı da Allahın Quranda bildirdiyi şəkildə olmalıdır. Quranda ölümün və dirilişin bir dəfə baş verdiyi xəbər verilir. Hər bir insan dünyada ancaq bir həyat yaşayır. Bu həyatının bitməsi ilə də ölür. Rəbbimiz: **"Qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də, aşkarı da bilən Allahın hüzuruna qaytarılacaqsı-**

**nız. O da sizə nələr etdiyinizi xəbər verəcəkdir!"** ("Cumuə" surəsi, 8) buyurur. İnsan ölümündən sonra yenidən dirildilərək dünyada bütün etdiklərinə görə sonsuza qədər cənnətdə və ya cəhənnəmdə qalmağa layiq olur. Yəni insanın bir dünya həyatı, bir də sonsuza qədər yaşayacağı axirət həyatı var. İnsanların öləndən sonra dünya həyatına geri qayıtmayacağını Allah Quranda çox aydın şəkildə bildirir:

> **"Məhv etdiyimiz hər hansı bir məmləkət əhlinin (bir də dünyaya) qayıtması mümkün deyildir" ("Ənbiya" surəsi, 95).**

> **"Nəhayət, birinin ölümü gəlib çatdığı zaman o, belə deyər: "Ey Rəbbim! Məni geri qaytar! Bəlkə zay etdiyim ömrün müqabilində yaxşı bir iş görüm! Xeyr, bu, onun dediyi boş bir sözdür. Onların önündə dirilib duracaqları günə qədər maneə (bərzəx) vardır" ("Muminun" surəsi, 99-100).**

Yuxarıdakı ayələrdən də aydın olduğu kimi, insanların bir hissəsi ölümlə qarşılaşanda yenidən dirildilməyi ümid edəcək. Amma onlara bunun qətiyyən mümkün olmadığı həmin an açıqlanacaq. Allah başqa bir ayəsində insanların ölümü və dirildilməsi ilə bağlı bunları bildirir:

> **"Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O, sizi diriltdi. O, sizi yenə öldürəcək, sonra yenə də dirildəcək və daha sonra siz Ona tərəf qaytarılacaqsınız" ("Bəqərə" surəsi, 28).**

Allah insanın başlanğıcda ölü olduğunu bildirir. Yəni insanın yaradılışının əsası torpaq, su, palçıq kimi cansız maddələrdir. Daha sonra Allah bu cansız yığını **"düzəldib qaydaya salıb"** ("İnfitar" surəsi, 7) onu dirildir. Bu dirilişdən müəyyən bir müddət sonra, insan üçün müəyyən edilmiş vaxt qurtaran kimi yenidən öl-

dürülür və torpağa geri qayıdır, çürüyüb toz halına düşür. Bu da insanın ikinci dəfə ölü halına keçməsidir. Geridə isə axırıncı dəfə dirildilməsi qalmışdır. Bu da axirətdəki dirildilmə olacaqdır. Hər insan axirətdə dirildiləcək və bir də geri qayıtmağın mümkün olmadığını başa düşərək dünyada etdiyi hər bir hərəkətinin hesabını verəcək. Allah ayələrində insanın dünyaya gələndən sonra təkcə bir ölümdən başqa ölüm dadmayacağını belə bildirir:

**"Onlar orada ilk ölümdən başqa heç bir ölüm dadmayacaqlar! (Allah) onları cəhənnəm əzabından qorumuşdur. Sənin Rəbbindən bir lütf olaraq! Bu, böyük qurtuluşdur!" ("Duxan" surəsi, 56-57).**

Yuxarıdakı ayələr ölümün ancaq bir dəfə olduğunu göstərmək baxımından çox aydın və mütləqdir. Bəzi insanlar ölüm və axirət qorxusuna qalib gələ bilmək və özlərinə təsəlli verə bilmək üçün hər nə qədər karma ya da reenkarnasiya kimi batil inancları qəbul etmək istəsələr də həqiqət budur ki, heç kim öləndən sonra bir də dünyaya geri qayıtmayacaq. Hər bir insan ancaq bir dəfə öələcək və bu ölümündən sonra Allahın təqdir etdiyi şəkildə sonsuza qədər yaşayacağı axirət həyatı başlayacaq. Allah hər insanı dünyada etdiyi yaxşılıq və ya pisliklərə görə cənnətlə mükafatlandıracaq və ya cəhənnəmlə cəzalandıracaq. Allah sonsuz ədalət sahibidir. Sonsuz mərhəmətli və şəfqətlidir. Hər kəsə etdiyinin əvəzini nöqsansız olaraq verəndir. Ölümdən və ya cəhənnəmə getmək ehtimalından qorxaraq batil inanclarda təsəlli axtarmaq isə şübhə yoxdur ki, insanı daha çox bataqlığa aparır.

Ağıl və vicdan sahibi olan hər bir insanın bu yöndə bir qorxusu varsa, cəhənnəm əzabından qurtulub cənnəti ümid edə bilmək üçün səmimi olaraq Allaha yönəlməli və insanlar üçün hidayət rəhbəri olan Qurana tabe olmalıdır.

İnsan heç vaxt yaddan çıxarmamalıdır ki, nə cavan, nə yaşlı, nə gözəl, nə də varlı olması bu günə qədər yaşayan heç bir insanı ölümdən qoruya bilməmişdir. Buna görə də heç bir insan ölüm həqiqətini unutmamalıdır. Çünki insan bu həqiqəti qulaqardına vursa da, vurmasa da qaçılması mümkün olmayan bu həqiqət mütləq yaşanacaq.

**"Ölüm bihuşluğu həqiqətən gələcəkdir. (Ey insan!) Bu, sənin qorxub qaçdığın şeydir!" ("Qaf" surəsi, 19).**

Siz bu sətirləri oxuyarkən də ölümün yaxınlığını ağlınızdan keçirə bilərsiniz. Ancaq ölüm sizi bəlkə də əlinizdəki kitabı oxuyub qurtarmamış tapacaq. Bəlkə də ölüm sizə başqa insanlardan daha yaxındır. Bunun üçün mütləq bir səbəbin olması, bir xəstəlik, qəza və ya qocalığın olması da lazım gəlməyəcək. Çünki Allah ölüm vaxtı gələn insana ölüm mələklərini göndərəcək və bu insanın canını alacaq. Elə isə insanlar bu böyük həqiqəti heç vaxt ağıllarından çıxarmamalı, ölümə hazırlaşmağı heç vaxt sonraya buraxmamalıdırlar. Allah "Munafiqun" surəsindəki **"...Allah əcəli çatan heç kəsə möhlət verməz..."** ("Munafiqun" surəsi, 11) hökmü ilə ölümün gecikdirilməyəcəyini və ölümlə qarşılaşan bir insanın peşmançılığını Quranda bizə bildirmişdir:

**"Birinizin ölümü çatıb: "Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım!" deməmişdən əvvəl sizə verdiyim ruzidən xərcləyin. Və bilin ki, Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır!" ("Munafiqun" surəsi, 10-11).**

## Buddizmin batil axirət inancı

Karma inancının bir nəticəsi olaraq buddizmdə axirət, cənnət və cəhənnəm inancı da mövcud deyil. Bu, Allahın Quranda bildirdiklərinə tərs olan batil və azğın bir inancdır. Bu inanca görə, əvvəl də bildirdiyimiz kimi, bir insan hər ölümündən sonra yenidən dünyaya gəlir və bu, davamlı olaraq təkrarlanır. Sanskrit və müqayisəli filologiya professoru E.Uayşbörn Hopkins buddizmdə axirət inancının olmadığını özünün "Hindistan dinləri" ("The Religions of India") adlı kitabında belə izah edir:

> "Buddanın qurduğu sistemin məntiqi ona bu dünyada xoşbəxt olmayanların xoşbəxt ola biləcəyi başqa bir aləmin mövcudluğunu qəti şəkildə inkar etdirmişdir. O o biri dünyanı inkar edən fikrində qalmaqla kifayətlənməmiş, bundan da tələbələrini və tədqiqatçılarını insanın ölümdən sonrakı taleyini araşdırmaqdan və bu mövzuda sual verməkdən çəkindirmək üçün hər cür üsuldan istifadə etmişdir. Budda "Nirvana"ya çatmağın varlığın yox olmasına səbəb olduğuna inanmış və heç vaxt ölümsüz varlıq fikrini qəbul etməmişdir. Onun təkidlə üstündə durduğu məsələ hamının karma və yenidən dünyaya gəlmə doktrinalarını tam mənası ilə qəbul edərək imkan daxilində tez içində olduğu sıxıntılı doğuluş-ölüm dairəsindən azad olmağa səy göstərməsidir".[4]

Bəzi buddist mənbələrində isə ölümdən sonrakı həyatla bağlı bu məlumatların verildiyini görmək olar:

> "Yenidən doğulmaq istər cənnətdə, istərsə də cəhənnəmin müxtəlif təbəqələrindən birində baş versin, bəhs edilən bu

məkanlardakı var olmalar eynilə yer üzündəki kimi keçicidir, əbədi deyildir. Fərdin bu məkanlardakı qalmaq müddəti Hinduizmdə olduğu kimi onun yer üzündə ikən etdiyi yaxşılıq və pisliyin miqdarına bağlıdır. Müəyyən edilmiş müddətin bitməsindən sonra yenidən yer üzünə qayıdılacaq. Cənnət və cəhənnəm fərdin dünyadakı davranışlarının əvəzini gördüyü müvəqqəti mövcudluq təbəqələrindən başqa bir şey deyil".[5]

Göründüyü kimi, buddist təlimlərinə görə, insanların əməllərinin əvəzinin verildiyi bir növ cənnət və cəhənnəm inancı var. Ancaq haqq bir dinə aid olmadığı üçün bu inancda çoxlu ziddiyyət və məntiqsizliklər mövcuddur. Hər şeydən əvvəl Allahın Quranda bildirdiyinin əksinə olaraq buddizmdə cənnət və cəhənnəm sonsuz deyil, müvəqqətidir. Bu inancın ən məntiqsiz yönlərindən biri isə dünyada mövcud olan bütün sistemlərin əvvəl də qeyd etdiyimiz kimi, öz-özünə fəaliyyət göstərdiyinə olan inamdır. Buddizmə görə, kainatın və insanların var olması kimi ölüm və yenidən dünyaya gəlmək məsələsi də başıboşdur. Bu inancda dünya həyatını, cənnət və cəhənnəmi yaradan, insanlara əməllərinin əvəzini verən bir Yaradanın varlığı qəbul edilmir. Halbuki bu, çox məntiqsiz və qəbul edilməsi qeyri-mümkün bir iddiadır. Cənnət və cəhənnəm kimi mükafat və cəza veriləcək məkanların mövcudluğunu qəbul etmək, ancaq bu yerlərin necə yaradıldığını, cəzanı və mükafatı kimin verəcəyini, ədalətin necə təmin ediləcəyini açıqlamamaq çox böyük məntiqsizlikdir. Ən pisi odur ki, karma fəlsəfəsində bunlar iddia edildiyi halda cənnət və cəhənnəmin bir Yaradansız necə meydana gəlməsi ilə bağlı heç bir izah yoxdur. Bu, ancaq nəsildən-nəslə ötürülən və heç vaxt da məntiqli bir formada izah edilməyən və soruşulmayan bir batil inancdır. Buddizmin kainatın yaradılma-

sına, sistemin nizamlı fəaliyyətinə, canlılardakı qüsursuz yaradılışın mənşəyinə dair heç bir məntiqli cavabı yoxdur. Buna görə də buddizm heç bir məntiqli yönü olmayan, ancaq əfsanəvi hekayələrlə ayaqda saxlanılmağa çalışılan mistik bir cərəyandan başqa bir şey deyil.

**Axirətdə insanları gözləyən həqiqət**

Dünya həyatı və axirət inancı ilə bağlı həqiqətləri öyrənə biləcəyimiz yeganə mənbə aləmlərə nəsihət olaraq göndərilən Quran və Peyğəmbərimizin (s.ə.v.) sünnəsidir.

Allah Quranda dünya həyatının bütün insanlar üçün müvəqqəti bir imtahan, axirətin isə sonsuz yurd olduğunu bildirir. Hər insan təxminən 60 illik dünya həyatı boyunca bütün etdiklərinin əvəzini cənnətdə və ya cəhənnəmdə alacaq. Bu həqiqəti Allah Quranda belə xəbər verir:

> **"Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?" ("Ənam" surəsi, 32).**

Allaha təslim olan, Onun göndərdiyi hidayət rəhbərinə və Peyğəmbərimizin (s.ə.v.) sünnəsinə tabe olan bir insan qiyamət gününə, axirətdə bütün əməllərinin hesabını verəcəyinə, dünya həyatında etdiklərinin əvəzini sonsuza qədər cənnətdə və ya cəhənnəmdə alacağına könüldən iman gətirər. Çünki həqiqət budur. Allah bunu insanlara endirdiyi kitabları və göndərdiyi peyğəmbərləri ilə bildirmişdir. Buddizm isə tək bir insanın öz-özünə əmələ gətirdiyi bir fəlsəfə və onun üzərində inşa edilən və məhz insan quruluşu olan təlimlərdən əmələ gəlir. Allahdan gələni insana aid olan bir

fəlsəfə ilə dəyişdirmək əlbəttə ki, böyük bir yanlışlıqdır. Başqalarından eşidilən məlumatlarla, adi bir həvəslə, heyran olduqları estrada ulduzunun və ya kino aktyorunun buddist mesajlarından təsirlənərək yaxud da bir dəbə uyğun olaraq buddizmi yol olaraq qəbul edənlərin bu həqiqəti fikirləşməsi və yanlışlıqlarından əl çəkməsi lazımdır. Çünki Allah axirətin yalan olduğunu söyləyənlərin vəziyyətini Quranda belə bildirir:

> **"Ayələrimizi və axirətə qovuşmağı doğru hesab etməyənlərin əməlləri puça çıxdı. Onlar ancaq öz əməllərinin cəzasını çəkəcəklər!" ("Əraf" surəsi, 147).**
>
> **"Kafir olub ayələrimizi və axirətə qovuşacaqlarını inkar edənlər isə əzab verilmək üçün hazırlanacaqlar" ("Rum" surəsi, 16).**

Yuxarıdakı ayələrdə xəbər verilən bu əzab ölümlə birlikdə başlayacaq. Dünyadakı həyatları boyu nə qədər böyük səhv içində olduqlarını başa düşən insanlar yenidən əvəzi olmayan bir peşmançılıq yaşayaraq belə deyəcəklər:

> **"Gətirilib od üstündə saxlandıqları zaman sən onların: "Kaş ki, biz dünyaya qaytarılıb Rəbbimizin ayələrini yalan hesab etməyəydik və möminlərdən olaydıq!" demələrini görəydin!" ("Ənam" surəsi, 27).**
>
> **"Kaş günahkarları öz Rəbbinin hüzurunda başlarını aşağı dikib: "Ey Rəbbimiz! Gördük, eşitdik. İndi bizi (dünyaya) qaytar ki, yaxşı iş görək. Biz tam yəqinliklə inandıq!" deyəndə görəydin!" ("Səcdə" surəsi, 12).**

Ancaq onlar nə qədər yalvarıb-yaxarsalar, bağışlanmalarını istəsələr də daha geri qayıdılmayacaq və əzabla dolu olan bir həyata başlayacaqlar. Onların tövbələri qəbul edilməyəcək, dünyaya yenidən geri qaytarılmaq istəkləri isə heç vaxi yerinə yetirilməyəcək. Dünyada dəfələrlə xəbərdarlıq edildikləri halda Allaha şirk

qoşanlar, daşdan, taxtadan düzəltdikləri heykəllərin qarşısında səcdə edənlər, insanlara sadəcə olaraq özlərini göstərmək üçün və ya diqqəti cəlb etmək üçün boş fəlsəfələrin ardınca gedənlər və Allahdan gərək olduğu qədər qorxub çəkinməyənlər ölüm mələkləri ilə qarşılaşdıqları andan etibarən davamlı bir alçaldılma mərhələsinə daxil olacaqlar. Canlarının bellərinə və böyürlərinə vurularaq alınması, cəhənnəmin içinə atılmaları axirət həyatındakı alçaldılmanın bir başlanğıcı olacaq. Allah onların danışmasına icazə verməyəcək, səslərinin bir xırıltıdan artıq çıxması mümkün olmayacaq ("Taha" surəsi, 108).

Cəhənnəm Allah qarşısında lovğalanan, axirətə, yenidən dirilişə inanmayan və Rəbbimizin göndərdiyi xəbərdaredicilərə itaət etməyən, gözəl əxlaqdan uzaq bir həyat davam etdirən bütün inkarçıların sonunun olacağı yer oalacaqdır. Cəhənnəm əhli **"əlləri boyunlarına bağlı vəziyyətdə"** ("Furqan" surəsi, 13) alovun sıx olduğu yerə atılacaq, tüstülü bir kölgə içində qalacaq. Alovun uğultulu gurultusunu fasiləsiz şəkildə eşidəcəklər. Sümükləri şaqqıldadan iniltilərlə qarşılacaqlar. Xüsusilə əzabın davamlı olması və cəhənnəm əhlinin bütün yalvarışlarına baxmayaraq onlardan qətiyyən yüngülləşdirilməyəcəyi tərifi olmayan bir sıxıntı vəsiləsi olacaqdır. Çünki Allah cəhənnəm əzabını **"hər tərəfi qapalı alov"** ("Bələd" surəsi, 20) olaraq bildirir.

Cəhənnəmdəkilər fiziki baxımdan da qorxulu bir görünüşə bürünəcəklər. Üzləri qapqara, qorxudan və dəhşətə görə zillət içində olacaqlar. Hüceyrələri qovuracaq qədər güclü olan odda dəriləri yanacaq və Allahın **"...Onların dəriləri bişdikcə əzabı dadsınlar deyə o dəriləri başqası ilə əvəz edəcəyik..."** ("Nisa" surəsi, 56) ayəsində bildirdiyi kimi, dəriləri dəfələrlə təzələnəcək. Dəmir qamçılarla qamçılanıb **"yetmiş arşın uzunluğunda zəncirlə"** ("Haqqə" surəsi, 32) vurulacaqlar. Alınları, böyürləri və belləri

qızğın odda dağlanacaq, başlarından aşağı qaynar sular töküləcək. Paltarları və yataqları alovdan və qətrandan olacaq, dəmir həlqələrlə bağlanacaqlar.

Cəhənnəm əhlinə təqdim ediləcək yeməklərin və içkilərin iyrəncliyi də Quranda açıqlanmışdır. Allah **“İrindən başqa bir yeməyi də yoxdur"** ("Haqqə" surəsi, 36) ayəsində insanların dünyada azını da görməyə və ya iyini hiss etməyə dözə bilmədikləri qan və irinin (çirkli yaradan axan mayenin) cəhənnəm əhlinin əbədi qidası olacağını xəbər verir. Dünya həyatında Allahı yaddan çıxarıb öz arzularının arxasınca getmələrinin əvəzi olaraq girdikləri cəhənnəmdə irinli, qaynar sudan içirdiləcək, parçalanacaq boğazlarından heç bir şey keçməyəcəyi üçün udqunmağa çalışacaqlar, lakin udquna bilməyəcəklər. Allah günahkar cəhənnəm əhlinə yedirdiləcək başqa yeməklərin də zəhərli olan darı tikanı və zəqqum ağacı olduğunu ayələrdə belə bildirmişdir:

> **"Həqiqətən zəqqum ağacı günahkar kimsənin yeməyidir! O, ərinmiş mis (yağ) kimi qarınlarda qaynar; qaynar su qaynayan kimi!" ("Duxan" surəsi, 43-46).**

Allaha inanan və Ona könüldən qulluq edən insanlar isə belə bir vəziyyətə düşməyəcək, asan bir hesabla sorğuya çəkilib qorxuya, kədərə və peşmançılığa qapılmadan cənnətə sövq ediləcəklər. Allah möminlərin üzünün o gün işıq kimi parlayacağını ayələrində xəbər vermişdir. Onlar dünya həyatı boyu batil fəlsəfələrin arxasınca düşmədən Allahı haqq Kitabında bildirdiyi şəkildə razı etməyə çalışmasının və bu cür həyatlarını yaşamasının, Allahdan qorxub Onun əzabından çəkinməsinin əvəzini sonsuza qədər cənnətdə alacaqlar. Allah Quranda bu vəziyyəti belə xəbər vermişdir:

> **"Kafirlər dəstə-dəstə cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatınca onun qapıları açılacaq və cəhənnəm gözətçiləri onlara deyəcəklər: "Məgər sizə öz içərinizdən**

**Rəbbinizin ayələrini oxuyan, sizi bu gününüzə qovuşacağınızla qorxudan peyğəmbərlər gəlməmişdi?" Onlar isə: "Bəli, lakin əzab sözü kafirlər barəsində vacib oldu!" deyə cavab verəcəklər. (Onlara) belə deyiləcək: "Girin cəhənnəmin qapılarına orada əbədi qalmaq üçün!" Təkəbbür göstərənlərin məskəni necə də pisdir! Rəbbindən qorxanlar da dəstə-dəstə cənnətə gətiriləcəklər. Nəhayət, ora çatınca onun qapıları açılacaq və gözətçiləri: "Salam əleyküm! (Sizə salam olsun!) Xoş gəldiniz! Əbədi qalacağınız cənnətə daxil olun!" deyəcəklər" ("Zumər" surəsi, 71-73).**

Elə isə bütün insanların Allahın **"O saat mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur..."** ("Həcc" surəsi, 7) şəklindəki xəbərini davamlı olaraq fikirləşməsi, hesab günü yaxınlaşarkən edilən xatırlatmalara mütləq diqqət etmələri lazımdır. Çünki həmin gün yaxşılıq edənlər etdikləri yaxşılıqlarının əvəzini qüsursuz olaraq taparkən pislik edənlər etdikləri pisliklərlə aralarında uzaq bir məsafə olmasını istəyəcəklər. İnsanlar yalnızca və təkbaşına Allahın hüzuruna çıxacaq və ən xırda bir haqsızlığa məruz qalmadan aralarında ədalətlə hökm veriləcəkdir:

**"İnsanların haqq-hesab vaxtı yaxınlaşdı, onlar isə hələ də qəflət içindədir və üz döndərirlər. Rəbbindən onlara elə bir yeni xəbərdarlıq gəlməz ki, onu məsxərəyə qoyub dinləməsinlər ("Ənbiya" surəsi, 1-2).**

Buddizm və insanlar tərəfindən hazırlanan buna oxşar fəlsəfələr isə insanları ən böyük həqiqət olan Allahın varlığından və Ona qulluq etməkdən uzaqlaşdıran səhvlərdir. Buddizm həqiqətdə bir çox cəhətdən insan təbiətinə də son dərəcə zidd olan bir əxlaq anlayışı ilə insanların dinsizliyin gətirdiyi vicdan əzabından qismən də olsa xilas olmasını təmin edir və bununla da saxta bir "mə-

nəviyyat" mənbəyi olaraq fəal olur. İnsanlar buddizmdə özlərinə əziyyət verərək, fiziki ehtiyaclarını cavabsız buraxaraq mənəvi bir nailiyyət qazandıqları zənninə qapılır və bununla təsəlli tapırlar. Onların heç cür başa düşə bilmədikləri gerçək budur: insanın bilməsi vacib olan ən əsas həqiqət onun Allahın bəndəsi olmasıdır. Hər hansı bir əməl ancaq Allahın razılığı nəzərə alınaraq, Ona qulluq etmək şüuru ilə ediləndə bir dəyərə malik olur. İnsanın nəfsinin istək və arzularına nəzarət etməsi də Allahı rizası (və Allahın istədiyi ölçüdə) ediləndə dəyəri olan bir səydir. Allah Onun razılığı əsas alınmadan davam etdirilən bu cür səylərin sahibləri üçün **"zəhmət çəkib boşuna yorulmuşdur"** ("Ğaşiyə" surəsi, 3) deyə buyurur.

### Buddizmə görə dünya həyatı

Əvvəl də qeyd etdiyimiz kimi, karma inancında insanlar bir-birini əvəzləyən yeni həyatlardan təşkil olunan həyat dairəsinin heç başa çatmadığına və hər ölümdən sonra mütləq yenidən diriləcəklərinə inandıqları üçün qarşılarında saysız imkanları olduğunu zənn edirlər. Dolayısı ilə bir insan hər hansı bir pis iş görmək istəsə, "sonrakı həyatımda daha pis yaşasam da onlan sonrakı həyatımda bunun əvəzini çıxaram" deyə fikirləşə bilir. Belə çürük əsasların üstündə bina edilən bir anlayışın insanları pisliklərdən çəkindirməsi mümkün deyil. Çünki dünya həyatına bağlılıq insanların əksəriyyətinin mühüm bir zəifliyidir. Onların reenkarnasiya kimi batil bir fikrə inanmasının ən mühüm səbəbi də bu bağlılıqları və dünya həyatından heç cürə əl çəkməmələridir. İnsanların öz davranışını köklü şəkildə düzəldərək gözəl əxlaqla yaşaması isə onların

yalnız bu dünya həyatının həqiqi mənasını dərk etmələri ilə mümkün olur.

Dünya həyatının həqiqi yönünü bilən bir insan onu və bütün kainatı yaradan, onu qoruyan və mərhəmət edən Rəbbimizə qulluq üçün yaradıldığını, hər etdiyində, hər sözündə və düşüncəsində Allah qarşısında məsuliyyət daşıdığını və ölümündən sonra Ona hesab verəcəyini bilir. Dünya həyatının yaradılış səbəbini Rəbbimiz "Mülk" surəsində belə bildirir:

**"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, bağışlayandır" ("Mülk" surəsi, 2).**

Ayədən də aydın olduğu kimi, Allah həyatı insanları sınamaq üçün yaratmış, onları dünyada müvəqqəti olaraq yerləşdirmişdir. Burada qarşımıza çıxan hadisələrlə bizi imtahan edir. Allah iman gətirənlərlə inkarçıların ortaya çıxması, inananların pisliklərdən təmizlənməsi və cənnət əxlaqına yiyələnməsi üçün həyatı davam etdirir. Yəni dünya ancaq Allahın razılığını qazana bilməyimiz üçün bir sınaq, bir təlim yeridir. Allah insanları Ona qulluq etmək üçün yaratdığını belə bildirir:

**"Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, çəkinəsiniz!" ("Bəqərə" surəsi, 21).**

Allah insanlara onların qoruması lazım olan sərhədləri, razı olacağı və olmayacağı davranışları aşkar şəkildə bildirmişdir. Buna görə də insan dünyada göstərdiyi davranışı ilə əbədi həyatında ya cəza çəkəcək, ya da mükafata nail olacaqdır. Buna görə də yaşadığımız hər saniyə bizi ya cənnətə, ya da cəhənnəmə yaxınlaşdırır. Allah bu həqiqəti bəndələrinə əksər ayələrində xatırladır və onları həmin günə qarşı xəbərdar edir:

**"Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə nəzər salsın. Allahdan qorxun. Həqiqə-**

**tən Allah etdiklərinizdən xəbərdardır!" ("Həşr" surəsi, 18).**

Allahın əzab verməyindən qorxan möminlər ancaq Ona qulluq edər, Onun əmrlərinə qeyd-şərtsiz tabe olar, pisliklərdən çəkinərək Rəbbimizi razı salacaq hərəkət edərlər. Bir insanın həqiqi mənada üstün əxlaqa sahib olmasının, öz mənfəətlərinə zidd olsa da gözəl əxlaqdan bircə addım da geri çəkilməməsinin yeganə yolu Allaha qarşı güclü bir sevgisinin və bağlılığının olması, Ondan qorxub çəkinməsi və Ona quluq etməkdə iradəli olmasıdır. Əks təqdirdə hər insanın özünə aid bəzi gözəl əxlaq xüsusiyyətləri ola bilər. Bunlar ya azdır, ya qısa müddət ərzində özünü göstərir, ya da bəzi səbəblərlə bağlıdır. Buddizmdə də insanlara bəzi gözəl davranışlar tövsiyə edilir. Ancaq bunların Allah dərgahında bir dəyəri olmaya bilər. Onu yoxdan yaradan Allahın varlığını nəzərə almayaraq Ona qarşı nankor olan bir insanın ətrafındakı insanlara bəzi yaxşılıqlar etməsinin nə dəyəri ola bilər ki? İnsanın etdiyi işlərin dəyəri olması üçün onun Allaha iman gətirməsi, etdiyi hər şeyi Onun razılığını qazanmaq üçün etməsi, Onun qədrini lazım olduğu kimi təqdir etməsi və Allahdan qorxub çəkinməsi lazımdır. Buna görə də möminlərin gözəl əxlaqı romantik təmayüllərə əsaslanmaz. Allahın Quranda da bildirdiyi kimi, onların ibadəti davamlı və fasiləsizdir:

**"Allah doğru yolda olanların doğruluğunu artırar. Əbədi qalan yaxşı işlər isə Rəbbinin yanında savab etibarilə daha xeyirli, nəticə etibarilə daha yaxşıdır!" ("Məryəm" surəsi, 76).**

**"Göylərdə və yerdə nə varsa, hamısı Onundur! Din də daim Onundur. Belə olduğu təqdirdə Allahdan başqasındanmı qorxursunuz?" ("Nəhl" surəsi, 52).**

**"Mal-dövlət, oğul-uşaq bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarilə daha xeyirlidir!" ("Kəhf" surəsi, 46).**

İnsanlar dünya həyatının müvəqqəti və aldadıcı bər-bəzəyinə həvəslə bağlanmaqdan çəkinməlidirlər. Çünki axirətdə insanların varlı olmasının, gözəlliyinin və dünyada sahib olduqları heç bir şeyin onlara xeyri olmayacaq. Torpağa basdırılan bədənləri çürüyəcək, malları dövr keçdikcə yox olacaq. O insanlar da başqa insanlar kimi hesaba çəkilmək üçün Rəbbimizin hüzuruna çıxacaq. Dünya həyatı çox qısadır. Hazırda 30 yaşında olan bir insana bu yaşına qədər nələr gördüyünü, nələr yaşadığını soruşsanız "hər şey çox sürətli keçdi" cavabını verəcək. Bu insan təxminən bunun kimi bir 30 il də yaşayacaq. Sonra həyatı qurtaracaq.

Allah ayələrdə diqqətləri dünyada yaşanan bu vaxtın qısalığına yönəltmiş, insanların axirətdə bunu açıq formada etiraf edəcəklərini bildirmişdir:

**"Gündüz bir saat belə (dünyada) olmamışlar kimi bir yerə toplayacağı gün..." ("Yunus" surəsi, 45).**

**"Qiyamət qopacağı gün günahkarlar bir saatdan artıq qalmadıqlarına and içərlər. Onlar belə döndərilirdilər" ("Rum" surəsi, 55).**

Elə isə insanın qısa dünya həyatının keçici bər-bəzəyinə aldanıb sonsuz axirət həyatını yada salmaması çox böyük ağılsızlıqdır. Çünki insanın Allaha hesab verəcəyi gün qəti bir həqiqətdir. Allah "Yunus" surəsində belə buyurur:

**"Bizimlə qarşılaşacaqlarına ümid etməyən, dünyanı bəyənib ona bel bağlayan və ayələrimizdən qafil olanların məhz onların qazandıqları günahlara görə düşəcəkləri yer cəhənnəmdir!" ("Yunus" surəsi, 7-8).**

Dünya həyatına aldanmayan, Allahın razılığını və sonsuz axirət həyatını seçənlərə isə Rəbbimiz bu cür müjdə verir:

**"Biz axirət qazancını istəyənin qazancını artırar, dünya mənfəəti istəyənə də ondan verərik. Onun axirətdə heç bir payı yoxdur" ("Şura" surəsi, 20).**

Allah dünyada da insanlara nemətlərini verməsinə baxmayaraq ayələrində davamlı olaraq axirətin nemətlərini istəməyi nəsihət edir. Çünki onlar daha xeyirli və daha sürəklidir ("Taha" surəsi, 131).

# MATERİALİST QƏRB MƏDƏNİYYƏTİ VƏ BUDDİZM

Bu gün buddizmi dünyanın gündəminə gətirən ən böyük səbəb bu dinin ənənəvi coğrafiyası olan Uzaq Şərqdəki mövcudluğu deyil, Qərbdə aparılan təbliğatdır. Bu təbliğatın başlanğıcı XIX əsrə qədər gedib çıxır. XX əsrin ikinci yarısında isə buddizm getdikcə nəzərləri cəlb etmək və "orijinal" olmaq istəyən insanlar üçün bir dəb halına gəlməyə başlamışdır.

Bu dəbin başlanğıcı xüsusilə 1960-cı illərdəki pop musiqisi mədəniyyətinə söykənir. Həmin illərdə Qərb gəncliyinin bir hissəsi və bəzi Qərb ziyalıları ənənəvi xristian inancını tərk edərək yeni axtarışlara başlamışdılar. Bəziləri axtardıqlarını Uzaq Şərq dinlərində tapmışdı. Bu axtarışların ən mühüm səbəbləri isə "əks olmaq", "sistemə qarşı çıxmaq" və bu yolla nəzərləri özlərinə cəlb etmək idi. 60-cı illərin pop mədəniyyətini müəyyənləşdirən "Bitlz" ("Beatles") qrupunun üzvlərindən Corc Harrison (buddizmə oxşayan Uzaq Şərq bütpərəst inancı olan) hinduizmi qəbul etdiyini elan

edəndə bu qrupun heyranları da bu təlimə diqqət yönəltməyə başladılar. Con Lennon "Kainat boyunca" ("Across the Universe") adlı mahnısında buddist "mantra"lardan (müqəddəs ritmlər) istifadə etdi. 60-cı və 70-ci illərin "xippi" gəncliyi arasında buddist melodiyaları, geyimləri və sözləri çox dəbdə idi.

Buddizm haqqında diqqətçəkici məqam onun bu cür məşhur mədəniyyət vasitələri ilə Qərb dünyasına sistemli şəkildə təlqin edilməsidir. Populyar mədəniyyətin ən mühüm memarı olan Hollivud bu məsələdə ən öndə gedir. Hollivudun əsas etibarı ilə Amerikanın "liberal" qanadının fikirlərinin əks etdirdiyi, yəni əksəriyyət etibarı ilə xristian inancına və əxlaqına zidd dəyərləri müdafiə etməsi məlum olan bir həqiqətdir. Hollivud dinin əleyhinə olan nəzəriyyələrin müdafiə edilməsində də ön cərgələrdədir. Məsələn, təkamül nəzəriyyəsi elm yönümlü kinoların əksəriyyətində tamaşaçılara güclü bir formada təqdim edilir. Təkamül-yaradılış mübahisəsində Hollivud filmləri demək olar ki, həmişə darvinistlərin yanındadır (Hollivudun məşhur "Küləyi miras al" ("İnherit the Wind") kinosu ilə başlayan bir "din əleyhinə darvinist təbliğat" ənənəsi var). Hollivud filmlərində İslamın pis şəkildə göstərilməsi və onun aşağılanması təmayülü isə çox aydın olan başqa bir "strategiya"dır.

Ancaq xristianlıq və İslam kimi ilahi dinlərə ümumiyyətlə müsbət yanaşmayan Hollivud dünyası buddizm məsələsində tam zidd bir yoldadır. Buddizm mərhəmətli, sülhlə dolu və cazibəli bir din kimi göstərilir. Bred Pittin baş rolda çəkildiyi "Tibetdə yeddi il" ("Seven Years İn Tibet") və ya Martin Skorsizin rejissoru olduğu və buddist baş rahib Dalay Lamanın həyatından bəhs edən "Kundun" kimi filmlər buddizmin geniş kütlələrə təlqin edilməsi vəzifəsini yerinə yetirir.

Kinolar qədər aktyor və aktrisaların özəl həyatı da buddizm təbliğatında mühüm rol oynayır. Döyüş filmlərinin məşhur ulduzu sayılan Stiven Siqal "Tibet buddizmi Nyinqma dərnəyi" tərəfindən XV əsrdə yaşamış bir "lama"nın reenkarnasiyası elan edilmişdir. Məşhur aktyor Riçard Gir aktrisa Uma Turmanın atası Riçard Turmanla birlikdə Nyu-York şəhərində "Tibet evi" qurmuş, buddizmi müdafiə edən kitablar yazmışdır. Digər tanınmış buddistlərin arasında Tina Törner, Harrison Ford, Oliver Stoun, Herbi Henkok, Kurtni Lav kimi adları göstərmək olar.

Şübhəsiz ki, özəl həyatları ancaq onların özlərini düşündürər. İnsanlar da istədikləri inancı qəbul etməkdə azaddır. Əgər bu insanlar həqiqi İslamı öyrənsələr, ürəklərinin dərhal isinəcəyinə də şübhə yoxdur. Ancaq bura qədər xülasə etdiyimiz mənzərənin göstərdiyi mühüm bir nəticə var: buddizm əsasən materialist bir mədəniyyətə sahib olan qərblilərin diqqət və marağına səbəb olur və onlar tərəfindən qəbul olunub müdafiə edilir. Materialist Qərb mədəniyyəti öz mənəviyyatının mənbəyi olan yəhudi-xristian mədəniyyətindən uzaqlaşarkən buddizmi təsdiq edir. Bəs nəyə görə belədir?

Bu suala cavab vermək üçün əvvəlcə "materialist Qərb mədəniyyəti"nin əsas xüsusiyyətlərini aydınlaşdırmaq lazımdır. XVIII əsrdə bünövrəsi qoyulan, XIX əsrdə nəzəri çərçivəsi qurulan və XX əsrdə də (nəzəri çərçivəsi getdikcə çürüsə də) kütləviləşən bu mədəniyyət:

- Allahın varlığını inkar edir. Kainatın təsadüfi əsər olduğuna inanır;

- canlıların necə meydana gəldiyi sualına verdiyi cavab "təkamül"dür. Darvinizmin canlı həyatı izah etdiyini qəbul edir;

- insanın "bir növ heyvan" olduğunu qəbul edir. İnsan ruhunun varlığını rədd edir;

- ölümdən sonrakı həyatı, dirilişi, hesab gününü, cənnət və cəhənnəmin varlığını rədd edir.

Materialist Qərb mədəniyyətinin hər biri böyük yanlışlıq olan bu fikirləri əlbəttə ki, ilahi dinlərə ziddir. Ancaq çox qəribədir ki, bu yanlışlıqları eynilə paylaşan başqa bir mədəniyyət də var: buddizm.

## Buddizmin Haksli tərəfindən kəşf edilməsi

Buddizm ateist bir dindir. Allahın varlığını qəbul etmir. Axirəti, cənnət və cəhənnəmi də qəbul etmir. İnsanın heyvanlardan fərqli bir ruhunun olmadığına inanır. Ən betəri isə karma inancına uyğun olaraq təbiətdə davamlı bir çevrilmə olduğunu əsas götürür. Buddizmə görə, bir balıq "sonrakı həyat"ında məməli olaraq dünyaya gələ bilər. Bir insan da "sonrakı həyat"ında adi bir soxulcan ola bilər. Cinslər arasında "keçid" olduğunu və insanı da heyvanlar arasında qəbul edən bu anlayışın Darvinin təkamül nəzəriyyəsi ilə mühüm oxşarlıqları var. Bir tədqiqatçı buddizmin təkamüllə bu əlaqəsini belə qeyd edir:

> "Əslində buddist fəlsəfə təkamülün baş verdiyini lazım bilir. Çünki hər şeyi bir-birinə keçə bilən varlıq olaraq qəbul edir. Davamlı olaraq yoxdan var olduğunu, bir müddət varlığını davam etdirdiyini və sonra itdiyini müdafiə edir. Cinslərin dəyişməyərək sabit qalması buddist ontologiya ilə uyğun gəlməyəcəkdir".[6]

Buna görə də darvinistlər XIX əsrdən bu günə kimi buddizmə rəğbət bəsləmiş və bu dini müdafiə etmişlər.

Buddizmə darvinistcəsinə heyranlığını ifadə edən ilk insan darvinizmin meydana çıxmasında bəlkə də Darvinin özündən də böyük rolu üzərinə götürən şəxs idi: Tomas H.Haksli.

Darvin öz nəzəriyyəsini ortaya atandan sonra Haksli onun ən qızğın müdafiəçisi olaraq səhnəyə çıxdı. Buna görə də o, həmin dövrdə "Darvinin çoban iti" ("Darwin's Bulldog") adlandırılmışdı. Yaradılışı müdafiə edən din və elm adamları ilə apardığı mübahisələr, darvinizmi müdafiə edən atəşin yazı və çıxışları Hakslinin adını XIX əsrin ən məşhur darvinisti olaraq tarixə yazdı.

Hakslinin çox bilinməyən bir xüsusiyyəti isə onun buddizmə heyranlığı idi. Xristianlıq və yəhudilik kimi ilahi dinlərin təmsilçiləri ilə mübarizə aparan Haksli buddizmi meydana gətirmək istədiyi sekulyar Qərb mədəniyyətinə uyğun bir inanc olaraq qəbul edirdi. "Philosorhy East and West" jurnalında dərc olunan "Hakslinin "Təkamül və əxlaq"ında buddizm" ("Buddhism in Huxley's Evolution and Ethics") sərlövhəli məqalədə bu məsələdən bəhs edilmişdir. Məqalədə Hakslinin "Təkamül və əxlaq" *("Evolution and Ethics"*) adlı kitabından buddizm haqqındakı bu fikirləri qeyd edilmişdir:

> "(Buddizm) qərbli mənasında Tanrı tanımayan bir sistemdir. İnsanın bir ruhu olduğunu qəbul etmir. Ölümsüzlüyə inanmağın səhv olduğunu müdafiə edir. Hətta bunu ümid etməyi günah sayır. Duaya və qurban ibadətinə yer vermir. İnsanların qurtuluş üçün ancaq öz etdiklərinə etibar etməsini istəyir... Yenə də qədim dünyanın çox mühüm bir hissəsində inanılmaz sürətlə yayılmış, əcnəbi inanclarla qarışsa da bəşərin kiçik görülməyəcək bir qisminin hakim olan inancı olmuşdur".[7]

Buradan da aydın olur ki, Haksli buddizmə heyrandır. Bunun yeganə səbəbi isə eynilə Haksli və digər darvinistlər kimi Allah inancına sahib olmamasıdır.

*"Buddhism in Huxley's Evolution and Ethics"* məqaləsinin müəllifi, Havay Universitetinin müəllimi Vicita Racapakseyə görə, Hakslinin buddizmə olan heyranlığında buddizmlə Qədim Yunanıstanın paqan və ateist mütəfəkkirləri arasında gördüyü paralellik də rol oynamışdır:

> "Hakslinin buddist fikirləri qərbli fikirlərlə əlaqələndirməyə açıq meylliliyi onun arqumentinin başqa ölçülərində də nümunələndirilir. Buddizmin qeyri-ilahi mövqeyini Heraklın fikirlərinə oxşatmış və "Stoacılıqla buddizm arasında" bir çox paralelliyə işarə etmişdir".[8]

Racapakse ancaq Hakslinin deyil, XIX əsrin digər bəzi ateistlərinin (və ya aqnostiklərinin) də buddizmə böyük heyranlıq hiss etdiklərini qeyd edir. Bu dövrdə buddizmlə materialist Qərb fəlsəfəsi arasında qurulan bir paralellik də Devid Yumun fikirləri mövzusundadır. XVIII əsrdə yaşamış şotlandiyalı mütəfəkkir Yum ateist və din əleyhdarı bir filosofdur. Racapakse **"Qəribədir ki, buddizm və Yum fəlsəfəsi arasındakı paralellər buddizm haqqında açıqlamalar edən ilk şərhçilər tərəfindən də düzgün bir şəkildə qeyd edilmişdir"** deyir və sözlərinə belə davam edir: "Məsələn, Riş Devids bildirir ki, "kənardan gələn bir ruha sahib olmamaq fikri kimi yönlərdən bizdən ancaq iki əsr əvvəl yaşayan Yumdan iki min dörd yüz il əvvəl eyni mövqeyi almışdır".[9]

Racapaksenin qeyd etdiyi kimi, Viktoriyanın dövründəki Ingiltərədə (yəni XIX əsrdə) daha bir neçə mütəfəkkir buddizmə rəğbət bəsləmişdir. Bunun səbəbi də buddizmi o dövrün yüksələn fəlsəfəsi olan ateizmə və darvinizmə uyğun görmələridir.

Buddizmə eyni səbəblə ılıq münasibət bəsləyən başqa bir ateist isə məşhur alman filosofu Fridrix Nitsşedir.

## Nitsşenin buddizm heyranlığı

XIX əsrin qatı ateistlərindən biri də Nitsşe idi. Xristianlığa kəskin nifrət edirdi. Buna baxmayaraq bütpərəst mədəniyyətini və bütpərəst əxlaqını müdafiə edən Nitsşe müdafiə etdiyi fikirlərlə XX əsrin faşizminin və xüsusilə nasizmin ideya rəhbəri oldu. Nitsşe şəfqət, mərhəmət, təvazökarlıq, təvəkkül kimi dəyərləri müdafiə edən xristianlığa müharibə elan edirdi. Nitsşe dolayısı ilə İslama və həqiqi yəhudiliyin əsas əxlaqi prinsiplərinə də qarşı çıxırdı. Nitsşenin ilahi dinlərə qarşı olan bu nifrəti şübhəsiz ki, ancaq bu dinlərin əxlaq prinsiplərindən deyil, bundan da əhəmiyyətlisi onun fanatik ateizmindən də qaynaqlanırdı.

Amerikalı ədəbiyyatçı Ceyson De Bur Nitsşe haqqındakı məqaləsində **"ateizm Nitsşenin fikirlərinin çox əhəmiyyətli bir parçasıdır"** deyir və bunları əlavə edir: **"O, bitərəf bir tənqidçi deyildi. Xristianlığa qarşı nifrətlə alışıb-yanırdı. Ateist yazıları da böyük kinlə dolu idi"**.[10]

Ancaq ehtimal edilə biləcəyi kimi, Nitsşenin nifrəti ancaq ilahi dinlərə qarşı idi, bütpərəst dinlərə qarşı deyildi. Əksinə, paqanizmi tərifləyir və ucaldırdı. Xüsusilə də buddizmi...

Ceyson De Burun sözləri ilə desək, **"qəribədir ki, tarixdəki ən davakar ateistlərdən biri olmasına baxmayaraq Nitsşe tamamilə din əleyhdarı deyildi... Digər bəzi dinlərin bir çox xüsusiyyətinə hörmət etmiş və onlara rəğbət bəsləmişdi; bunlar paqanizm, hətta buddizm idi".**[11]

İngilis elm adamı Devid R.Loy isə Nitsşe haqqında yazdığı bir məqalədə eyni mövzuda bunları bildirir:

> "Nitsşe ilə buddizmi müqayisə etmək hardasa klassik bir iş halına gəlmişdir və bunun yaxşı bir səbəbi var: aralarında dərin bir uyğunluq olduğu görsənir. Morrisonun bildirdiyi kimi, bir çox müştərək yönləri paylaşırlar: hər ikisi də Tanrısız bir kainatda insanın mərkəzdə olmağını vurğulayır və onların hər biri varlıq probleminin həlli üçün gətirdikləri həll variantlarında kənar bir varlığa əsaslanmır... Hər ikisi də insanı həmişə dəyişən və çox müxtəlif olan psixofiziki güclərin axını olaraq görür və bu axında muxtar və dəyişməyən bir varlığa (yəni ruha) yer vermirlər".[12]

Nitsşenin buddizmlə paylaşdığı bu fikirlər əlbəttə ki, böyük səhvlərdir. Bu səhvlərin ortaya çıxmasının səbəbi isə insanın təkəbbür və cəhalətindən başqa bir şey deyil. Kainatı və təbiəti ağıl və vicdan gözü ilə tədqiq edən insan Allahın varlığının aşkar dəlillərini görəcək. Eyni həqiqət əsrimizdəki elmi kəşflər tərəfindən də ortaya qoyulur. Nitsşe kimi ateistlərin ortaya atdığı "Tanrısız kainat" fikri "Biq Banq" və “İnsani prinsip" ("Anthroric Princirle") kimi elmi kəşflərlə darmadağın edilmişdir. Elm Allahın kainatı yaratdığına və fövqəladə bir sistemlə nizamladığına dair aşkar sübutlar ortaya qoymuşdur (*Ateizmin süqutu haqqında ətraflı məlumat üçün "İslamın yüksəlişi" adlı kitaba müraciət edə bilərsiniz*). Darvinin təkamül nəzəriyyəsinin mənasızlığını və "şüurlu nizam"ın varlığını göstərən dəlillər yaradılışn doğruluğunu isbat edir. Freyd, Marks və Dürkeym kimi XIX əsrin ateist mütəfəkkirlərinin fikirləri də yeni elmi kəşflərlə və ya sosial nəticələrlə bir-bir puç edilmişdir.

## Buddizm: materialist mədəniyyətə saxta mənəviyyat

Ateizmin qeyd edilən elmi süqutu bu gün Qərb dünyasında buddizmin niyə körükləndiyi sualı ilə də sıx bağlıdır. Ateist və materialist Qərb mədəniyyətinin memarları nəzəriyyələrinin puç olduğunu görürlər. Buna görə də ilahi dinlərə meylin güclənməsinə mane ola bilmək üçün bunun həllini buddizm kimi bütpərəst dinlərin yenidən canlandırılmasında görürlər.

Başqa sözlə, buddizm - və ona oxşayan başqa bütpərəst inanclar - materializmə saxta bir "mənəviyyat" əlavə edilməsidir.

Elə isə materialist Qərb mədəniyyəti buna niyə ehtiyac hiss edir? Qərb dünyasının iki min illik zehni inkişafını (və degenerasiyasını) tədqiq edən ingilis yazıçıları Maykl Beycent, Riçard Leyq, Henri Linkoln Qərb dünyasının XX əsrdə bir ideya böhranı içinə düşdüyünü bildirirlər. Başqa sözlə, Qərb cəmiyyətlərinə qəbul etdirilən materialist fəlsəfə və həyat tərzi insanları Allahın varlığı və Ona ibadət həqiqətindən qopararaq onların həyatını mənasız hala gətirmişdir. Beycent, Leyq və Linkolnun sözləri ilə desək, "həyat hər hansı bir mənadan və müəyyənedicilikdən tamamilə qopmuş və heç bir konkret hədəfə yönəldilməyən təsadüfi bir mövcudluq halına gəlmişdir".[13]

Bu ideya böhranına bir tərəfdən də materialist nəzəriyyələrin elmi səviyyədəki süqutunun əlavə edilməsi insanların ilahi dinlərə - xüsusilə də İslama - yenidən yönəlməsinə səbəb olmuşdur. Buna görədir ki, bu gün xristian, müsəlman və yəhudi dünyasında din yüksəlir. Dinə inananların və dini tətbiq edənlərin nisbəti getdikcə artır. Dini təfəkkür və dəyərlər cəmiyyətin həyatında daha çox yer tutmağa başlayır.

Buddizm və buna bənzəyən bütpərəst inanclar bu yüksəlişin qarşısını almaq, dinsizliyin ideya böhranı içində çabalayan insanlara saxta bir qurtuluş və çıxış yolu təqdim etmək üçün körüklənir. Buddizm, taoizm, hindiuzm, bunların Hare Krişna kimi versiyaları, bütün bu büpərəst təlimləri birləşdirən "New Age" kimi cərəyanlar, "başqa dünyalardan" gəldiyinə inanılan və "müqəddəs mətnlər" üzərində toplanan "UNO dinləri"... Bütün bunlar ateist və materialist ehkamlardan qopmaq istəməyən, buna baxmayaraq özlərinə bir cür "mənəviyyat" axtaran insanların qapıldığı boş-boş təlimlərdir. Bununla yanaşı heç bir təmələ əsaslanmayan boş bir təqlidçilik, nəzərləri özünə cəlb etmək arzusu da buddizmi seçən insanların qərarına çox böyük təsir edir.

Bu təlimlərin mənasız olduğunu başa düşmək üçünsə ancaq bir az fikirləşmək, onları ağıl və məntiq süzgəcindən keçirmək kifayətdir. Uzaq Şərq inanclarının təməli olan karma və reenkarnasiya inancı əvvəl də ətraflı şəkildə incələdiyimiz kimi heç bir məntiqə əsaslanmayan batil bir inancdır. (*Ətraflı məlumat üçün Harun Yəhyanın "İslam və karma inancı" adlı kitabına baxa bilərsiniz*). Bu dinlər Allahın varlığına inanmadığı, dolayısı ilə insanları hesaba çəkəcək ilahi bir məqam da tanımadığı halda hər insanın etdiyinin əvəzini görəcəyinə, "sonrakı həyat"ının buna görə müəyyən ediləcəyinə necə inana bilirlər? Bunu kim edəcəkdir? "Başqa dünyalardan gələnlər"ə sitayiş edənlər də çox batil bir inanc içindədirlər. Varlıqları tamamilə xəyal olan UNO-larla bağlı necə bir həyat fəlsəfəsi inşa edilə bilər? "Başqa dünyalardan gələnlər" mövcud olsalar da bu varlıqların insanlara doğru yol göstərəcəyinə təminat nədir? Ayrıca olaraq bunu da yaddan çıxarmamaq lazımdır ki, " başqa dünyalardan gələnlər" mövcud olsalar, mütləq onların da " yaradılmış" olmaları lazımdır. Bu batil inanclara qapılanlar həqiqi Yaradanları olan Allahın **"Biz sizi yaratdıq. Məgər təsdiq etməz-**

**misiniz?"** ("Vaqiə" surəsi, 56/57) ayəsinin üstündə fikirləşməlidir. Rəbbimizin Quranda əmr etdiyi kimi, yenə Onun yoluna tabe olmalıdırlar:

**"Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi Onun yolundan sapdıracaq yollara uymayın. Sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!" ("Ənam" surəsi, 6/153).**

# BUDDİZM TƏHRİF EDİLMİŞ HAQQ BİR DİN OLA BİLƏRMİ?

Bura qədər buddizmin batil inanclarını və yanlışlıqlarını incələdik. Ancaq bunlarla yanaşı bu dində bəzi müsbət əxlaq prinsiplərinin də olduğunu qeyd etmək lazımdır. Buddist mənbələrdə insanlar oğurluq etməkdən çəkindirilir, xeyirxahlığa təşviq edilir, onların eqoizmdən və mənfi istəklərdən təmizlənmələri istənilir. Bütün bunlar buddizmin ilk dəfə ortaya çıxanda Allahın vəhyinə əsaslanan haqq bir din olması və zaman ötdükcə təhrif edilə biləcəyi ehtimalını ağıla gətirir.

Allah ayələrində hər ümmətə mütləq xəbərdar edənlər göndərdiyini xəbər vermişdir:

**"Doğrudan da Biz səni haqla müjdə verən və qorxudan bir peyğəmbər kimi göndərdik. Elə bir ümmət yoxdur ki, onun içindən qorxudan bir peyğəmbər gəlib getməsin!" ("Fatir" surəsi, 24).**

**"Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin!" deyə peyğəmbər göndərmişdik. Onların bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə haqq yoldan azmalı olmuşdur" ("Nəhl" surəsi, 36).**

Allah başqa ayələrində isə **"Hər ümmətin bir peyğəmbəri vardır..."** ("Yunus" surəsi, 10/47) və **"Hər ümmət öz dəftərinə tərəf çağırılacaqdır..."** ("Casiyə" surəsi, 28) deyə buyurur.

Bu ayələr bizə Allahın hind xalqına da bir xəbərdarlıq edən göndərmiş olacağını göstərir. Bəlkə də bu xəbərdarlıq edən "buddizmin banisi" kimi tanıdığımız Siddharta Qautama ola bilər. Ancaq ondan sonra bu din təhrif edilmiş, yayıldığı ölkələrin mədəniyyət və dinləri ilə qarışıb əslini itirmiş, müxtəlif xurafatlarla birləşib batil bir din halına gəlmiş ola bilər (ən doğrusunu Allah bilir).

Əlbəttə, belə olan təqdirdə Siddharta Qautamanın həqiqi həyat hekayəsi hazırda bilinən mifologiyadan daha çox fərqli olacaqdır. Onsuz da Qautamanın həyat hekayəsi haqqında bir-birinə uyğun gəlməyən müxtəlif variantlar var. Bu isə həmin adamın həqiqi şəxsiyyətinin hazırda məlum olandan çox fərqli ola biləcəyini göstərən mühüm bir işarədir.

Yuxarıda da qeyd etdiyimiz kimi, buddizmin bəzi müsbət əxlaqi prinsipləri müdafiə etməsi bu dinin Haqq bir mənbədən gəlmək ehtimalını göstərən ilk səbəbdir. Bununla yanaşı, buddizmin başqa bir inancı Haqq dinin həqiqətlərinə uyğundur: bəşər tarixi boyu insanlara eyni həqiqətləri öyrədən dini rəhbərlərin (peyğəmbərlərin) gəlməsi və onlardan sonra insanların təhrif etmələri. Qərbli tədqiqatçı C.M.Robertson buddizmin "peyğəmbərlər zənciri" inancını belə izah edir:

"Buddizm... yeni bir təlim olduğu iddiasında deyil. Ənənəyə görə, daha əvvəllər dəfələrlə yayılmışdır. Qautama tarix boyu müəyyən aralarla ortaya çıxan və hamısı da eyni təli-

mi öyrədən bir seri Buddanın ancaq biridir. Mənbələrdə Qautamadan əvvəl ortaya çıxmış iyirmi dörd müxtəlif Buddanın adı qeyd edilmişdir... İnanca görə, hər Buddanın ölümündən sonra gətirdiyi din bir müddət inkişaf edir, ancaq sonradan təhrif edilir. Yaddan çıxandan sonra isə yeni bir Budda gəlir və itmiş Dhammanı, yəni həqiqəti yenidən öyrədir".[14]

Bu din ağla buddizmin "peyğəmbərlərdən sonrakı təhriflərlə ortaya çıxan dəyişdirilmiş inanclardan biri" ola biləcəyi ehtimalını gətirir. Digər tərəfdən, buddizmin tutucu və qəlibçi quruluşu da haqq dinin təhrifi əsnasında ortaya çıxan klassik bir dəyişikliyi xatırladır. Allah Quranda xristianların və yəhudilərin də eyni tələyə düşməsindən, dinlərini lazımsız yerə təfərrüat və qadağalarla boğmasından bəhs edir. Məsələn, buddizmdə də müşahidə edilən " dünyadan əlini-ətəyini çəkmək" və "öz-özünə əziyyət vermək" düşüncələri xristianlıqda da dinin təhrifi əsnasında ortaya çıxmış bir yanlışlıqdır. Allah Quranda bu yanlışlıqdan belə bəhs edir:

**"Sonra onların ardınca peyğəmbərlərimizi yolladıq. Məryəm oğlu İsanı göndərib ona Incil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq. Onlar özlərindən rahiblik (tərkidünyalıq) icad etdilər. Biz onu (rahibliyi) onlara vacib buyurmamışdıq, onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir" ("Hədid" surəsi, 57/27).**

Buddizm də "özlərindən rahiblik (tərkidünyalıq) icad etməklə" dəyişdirilmiş Haqq bir din ola bilər. Şübhəsiz ki, buddizmdəki təhrif xristianlıqdan və yəhudilikdən daha böyük səviyyədədir. Hər nə qədər təhriflərə məruz qalsalar da xristianlıq və yəhudi-

lik hələ Allahın vəhyinə bağlı, Ona iman gətirməyə əsaslanan ilahi dinlərdir. Buddizm isə əgər həqiqətən Haqq bir mənbədən gəlirsə də bu mənbədən tamamilə uzaqlaşmış, bir yığın batil inanc və ayinlə boğulmuş, özündən sonra ancaq bir neçə doğru əxlaqi prinsipi qalmışdır.

Buddizmin xristianlıq, yəhudilik və müsəlmançılığa oxşayan başqa mühüm bir yönü də hər üç ilahi dində mövcud olan axırzaman və Mehdi-Məsih inancının bu dində də mövcud olmasıdır.

Axırzaman qiyamətdən əvvəl yaşanacaq sonuncu dövrdür. Həm Quran ayələrində, həm də Peyğəmbərimizin (s.ə.v.) hədislərində axırzamanda İslam əxlaqının bütün dünyaya yayılacağı ilə bağlı çoxlu işarə var. Quran ayələrində Hz.İsanın ölmədiyi, öldürülmədiyi, həyatda ikən Allahın dərgahına yüksəldildiyi, sonra yenidən dünyaya qayıdacağı xəbər verilir. Hz.İsanın yenidən dünyaya qaytarılacağı Peyğəmbərimiz (s.ə.v.) tərəfindən də müjdələnmiş və onun göndəriləcəyi dövr olan axırzamanda bütün yer üzünün sülh, ədalət, əmin-amanlıq və rifahla dolacağı xəbər verilmişdir. Hədislərdə bu müqəddəs vəzifəsində Hz.İsaya Mehdinin kömək edəcəyi bildirilir (*Ətraflı məlumat üçün Harun Yəhyanın "Hz.İsa gələcək" adlı əsərinə müraciət edə bilərsiniz).*

Axırzaman hədislərdə iki müxtəlif dövrə ayrılır. Əvvəlcə Allahın açıq-aşkar inkar edildiyi, din əxlaqını yaşayanların sayının azaldığı, bahalığın və maddi sıxıntının çoxaldığı, qıtlıqların olduğu, insanların çox təbii fəlakətlə qarşı-qarşıya qaldığı, haqsızlığın və ədalətsizliyin yayıldığı, müharibələrin və döyüşlərin artdığı, insanlar arasında sevgi, mərhəmət və şəfqət hisslərinin yerinə mərhəmətsizlik və zalımlığın hakim olacağı bir dövr yaşanacaq. Sonra insanlıq bütün bu mənfiliklərin həqiqi mənbəyi olan dindənkənar və anti-din fəlsəfələrdən qurtularaq din əxlaqına yönələcək, bunun

nəticəsində isə qarşıdurmalar, haqsızlıqlar və zülmlər qurtaracaq. Sıxıntı və məhdudiyyət içində olan bütün insanlar böyük bir səadətə, əmin-amanlığa, barış və rifaha qovuşacaqlar. Dünya çox böyük bolluq və bərəkətlə dolacaq.

İslam dinində olduğu kimi xristianlıq və yəhudilikdə də bəhs edilən Mehdi-Məsih və axırzaman inancı mövcuddur. "Müqəddəs Kitab"ı təşkil edən Əhdi-Ətiqdə (Tövrat və yəhudilərin digər müqəddəs kitabları) və Əhdi-Cədiddə (dörd Incil və digər fəsilləri) axırzamanla bağlı çoxlu açıqlamalar var. Xüsusilə də Hz.İsanın gəlişi məsələsi Incil mətnlərində mühüm yer tutur. Bu izahlar Quran ayələri ilə Peyğəmbərimizin (s.ə.v.) hədisləri çox uyğun gəlir.

Tövratda Hz.İsanın adı qeyd edilmir. Ancaq Hz.Davudun nəslindən xilaskar bir Məsihin gələcəyi bildirilir. Bundan başqa, Tövratın bəzi fəsillərində son dövrlərdə baş verəcək hadisələrdən bəhs edilir. Tövratda gələcəyi vəd edilən, gəlişi və icraatları haqqında çoxlu açıqlamalar verilən Məsih Quranda da bildirildiyi kimi, Hz.İsadır. Məsihdən başqa gözlənilən insan üçün mələk, rəbb (əfəndi, öyrədən, tərbiyəçi), "davamlı xeyir" kimi müxtəlif sifətlər də işlədilmişdir.[15]

Tövratda Məsihin gəlişindən bəhs edilərkən onun dünyada quracağı hakimiyyətdən də çox danışılır. Millətləri öz idarəçiliyində toplaması, Hz.Davudun nəslindən olması və ona oxşaması (Hz.Davud da öz dövründə çata bildiyi bütün bölgələrdə hakimiyyət qurmuşdu) Məsihin əsas xüsusiyyətlərindəndir. Tövratda qeyd edilən bu pasajlardan bəziləri bu cürdür:

> "Rəbb ilə mübarizə aparanlar bölünəcəklər; onların üstünə göylər də guruldayacaqdır; Rəbb dünyanın uclarına hökm edəcəkdir; və kralına güc verəcək. Məsihinin gücünü yüksəldəcəkdir" (1-ci "Samuel", 2/10).

"Və kralların günlərində göylərin Allahı əbədi olaraq xarab olmayacaq bir hakimiyyət quracaq və onun hakimiyyəti başqa bir xalqa buraxılmayacaq və bu hakimiyyətlərin hamısını o parçalayacaq və bitirəcək və özü əbədi olaraq qalacaq" ("Daniel", 2/44).

"Ona kömək olduğum bəndəm. Canımın ondan razı olduğu seçilmiş bəndəm. Ruhumu onun üstünə qoydum. Millətlər üçün haqqı meydana çıxaracaq. Qışqırmayacaq və səsini yüksəltməyəcək və onu küçədə eşitdirməyəcək. Əzilmiş qamışı qırmayacaq, yanan fitili söndürməyəcək, haqqı həqiqətə çatdıracaq. Dünyada haqqı gücləndirənə kimi zəifləməyəcək və cəsarəti qırılmayacaq. Adamlar onun şəriətini gözləyəcəklər... Mən, Rəbb səni doğruluqla çağırdım və əlini tutacağam və səni qoruyacağam. Kor gözləri açasan, məhbusları zindandan və qaranlıqda oturanları həbsxanadan çıxarmağın üçün səni qövmə ahd, millətlərə işıq olaraq verəcəyəm" (“İşaya", 42/1-7).

"...Kasıblara ədalətlə hökm verəcək, məmləkətin həqirləri üçün düzgün qərar verəcək və dünyaya ağzının dəyənəyi ilə vuracaq və pisi dodaqlarının soluğu ilə öldürəcək. Və belinin kəməri ədalət... olacaq" (“İşaya", 11/1-10).

Incildə də Hz.İsanın ikinci dəfə dünyaya gəlməsi ilə bağlı çox açıqlama var:

"Çünki sizə yer hazırlamağa gedirəm. Əgər gedib yer hazırlasam, təkrar gəlib sizi Öz yanıma gətirəcəyəm ki, Mən haradayamsa, siz də orada olasınız" ("Yəhya", 14/2-3).

"Sizdən göyə aparılan bu İsanın göyə qalxdığını necə gördünüzsə, eyni cür geri qayıdacaqdır" ("Həvarilərin işləri", 1/11).

"Beləliklə, əgər sizə: "Budur, O, səhradadır" desələr də çıxmayın; "Budur, O, daxili otaqlardadır" desələr də inanmayın. Çünki şimşək şərqdə çıxıb qərbdə belə göründüyü kimi Insan Oğlunun gəlişi də belə olacaqdır" ("Matta", 24/26-27).

"Mübarək və tək Hökmdar, şahların Şahı və rəbblərin Rəbbi, ölməzliyə yeganə malik olan, əlçatmaz nurda yaşayan, insanlardan kimsənin görmədiyi və görməyə qadir olmadığı Allah Məsihin zühurunu vaxtında gerçəkləşdirəcəkdir. Allaha hörmət və əbədi qüdrət olsun. Amin" ("Timoteyə birinci məktub", 6/15-16).

Hz.İsanın ikinci gəlişi ilə meydana gələcək bu hakimiyyət həm də ədalətin, zənginliyin, gözəl əxlaqın hakim olduğu bir dövr olacaqdır. Bu mövzuda Incil pasajlarında verilən məlumatlardan bəziləri bunlardır:

"Həlimlər nə bəxtiyardırlar! Çünki yeri miras alacaqlar" ("Matta", 5/5).

"Buna görə siz belə dua edin: ...Səltənətin gəlsin" ("Matta", 6/9-10).

"İbrahimi, İshaqı, Yəqubu və bütün peyğəmbərləri Allahın Səltənətində, özünüzü isə oradan qovulmuş gördüyünüz zaman aranızda ağlaşma və diş qıcırtma olacaq. Şərq və qərbdən, şimal və cənubdan gəlib Allahın Səltənətində süfrəyə oturacaqlar. Və budur, elə sonuncular var ki, birinci olacaqlar; və elə birincilər var ki, sonuncu olacaqlar" ("Luka", 13/28-30).

Yuxarıda da qeyd etdiyimiz kimi, buddizmdə də bir xilaskar Məsih inancı var. Budda özündən 1000 il sonra gələcək və bütün aləmlərə rəhmət olacaq Metteyya (Maitreya) ilə dinini tamam-

layacağını ifadə etmişdir. Bu mövzu ilə bağlı müxtəlif ölkələrə aid bəzi buddist mənbələr belədir:

Burma mənbələrindən:

"Budda Sariputtaya belə dedi: "Bizim dövrümüz xoşbəxt bir dövrdür. Rəhbər dövrümüzdə yaşadı: Kakusanda, Kanoqama və Kasapa. Ulu Budda mənəm, ancaq məndən sonra Metteyya gəlir. Bu xoşbəxt əsr davam edərkən onun illərinin sayı qurtarmamışdan əvvəl bu Budda "Ulu deyilən Metteyya, bütün insanların Rəhbəri gələcəkdir""[17].

Seylon mənbələrindən:

"Mən yer üzünə gələn ilk Budda deyiləm, axırıncı da deyiləm. Zaman içində dünyaya başqa bir Budda gələr ki, bu şəxs müqəddəs işıqla tam olaraq aydınlanmış, davranışları hikmətlə dolu, xeyirli, bənzəri olmayan biridir... Sizə mənim açıqladığımı açıqlayar. Dinini və məqsədini bildirər. Mənim elan etdiyim kimi təmiz və həqiqi dini təbliğ edər. Onun tələbələrinin sayı minlərlə olacaq, ancaq mənimkilər yüzlərlədir. O, Metteyya kimi tanınacaqdır".[18]

# NƏTİCƏ:
# HAQQ GƏLDİ,
# BATİL YOX OLDU

Keçmiş xalqlar özlərinin daşdan, taxtadan düzəltdiyi heykəllərə sitayiş edər, onlardan kömək istəyər və arzularını yerinə yetməsini istəyərdilər. Bu heykəllərin onlara nəzarət etdiyinə, pis

bir iş edəndə hirsləndiyinə inanır və onlardan qorxardılar. Buddistlərin bütü də Buddadır. Ancaq Buddanı Allaha şərik qoşan buddistlər hamının nəzərini və diqqətini özlərinə cəlb etmək üçün buddizmi seçənlər necə aldandıqlarının fərqində deyillər. Axirət, cənnət, cəhənnəm inancına sahib olmadıqları və bu mövzuda heç cürə fikirləşmədikləri üçün etdiklərinin Allah dərgahında əvəzinin ola biləcəyini ağıllarına da gətirmirlər. Özlərini düzgün yolda olduqlarını zənn etdikləri üçün bu yöndə edilən dəvətlərə də böyük bir çaşqınlıqla münasibət bəsləyirlər. İnsanları içində olduqları müşrik din barədə xəbərdar edən, onları tövhidə çağıran bütün elçilər bənzər etirazlarla qarşılaşmışdılar.

Allah "Sad" surəsində belə buyurur:

**"Onlar öz içərilərindən özlərinə qorxudan bir peyğəmbər gəlməsinə təəccüb etdilər və kafirlər belə dedilər: "Bu, yalançı bir sehrbazdır! Əcəba, o, tanrıların hamısını bir tanrımı edir? Bu, doğrudan da çox təəccüblü bir şeydir. Onların əyanları çıxıb gedərək belə dedilər: " Gedin öz tanrılarınıza möhkəm olun. İstənilən şey budur. Biz bunu sonuncu dində də eşitməmişik. Bu ancaq bir uydurmadır" ("Sad" surəsi, 4-7).**

Biz də bu kitabla yer üzündəki buddistləri və müxtəlif səbəblərlə bu batil dinə rəğbət bəsləyən bütün insanları "La ilahə illahu" həqiqətini dərk etməyə, Allaha bir və tək olaraq iman gətirməyə dəvət edirik. Onları Hz.İbrahimin, Hz.Musanın, Hz.İsanın və Peyğəmbərimiz Hz.Muhəmmədin (s.ə.v.) təbliğ etdiyi din olan İslama çağırırıq. Bütün atalarını müşrik bir din üzərində görən, özü də müşrik bir dində olan hər bir insan əvvəlcə bu qərarı verməyə çətinlik çəkə bilər. Allahdan başqa tanrı olaraq qəbul etdiyi gücləri buraxıb ancaq Allaha qulluq edərək necə yaşayacağını başa düşməyə bilər. Halbuki onu hazırda yaşadan və ruzisini verən, onu qo-

ruyan və nəzarət edən ancaq Allahdır. Ona həyat verən, xəstələnəndə şəfa verən aləmlərin Rəbbi olan Allahdır. Allah dünyanı bir qədərə (taleyə) uyğun olaraq yaratmışdır. İnsanlar da "Təkvir" surəsinin 29-cu ayəsində bildirildiyi kimi, Allah istəmədən bir şey istəməyəcək qədər Allahın iradəsinə boyun əymişdilər. Allahın Quranda xəbər verdiyi kimi, **"Elə bir canlı yoxdur ki, onun ixtiyarı Onun əlində olmasın"** ("Hud" surəsi, 56). Şeytan bütün insanlara olduğu kimi buddistlərə də şirkdən qurtulmağı imkansız göstərə bilər. Halbuki bu, ancaq şeytanın verdiyi bir vəsvəsədən (şübhədən) ibarətdir. Şeytan Allahın Quranda xəbər verdiyi kimi, qiyamət günündə "İş bitdikdə şeytan belə deyəcək; **"Allah sizə doğru vəd vermişdi. Mən də sizə vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm yox idi. Lakin mən sizi çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Mən öncə sizin məni şərik qoşmağınızı da inkar etmişdim. Həqiqətən zalimləri şiddətli bir əzab gözləyir!"** ("İbrahim" surəsi, 14/22) deyəcək və bütün şirk qoşanları tək qoyacaqdır.

Bilmək lazımdır ki, şirkdən qurtulmaq üçün səmimi bir niyyət dəyişikliyi kifayətdir. Bu niyyət dəyişikliyi insanın hər şeyə, hər kəsə və bütün hadisələrə baxışını şirkdən tövhidə çevirəcək. Bu da necə vəziyyətdə olmasından asılı olmayaraq Allaha güvənməsinə və səmimi olaraq Qurana tabe olmağa qərar verməkdir. Bu səmimiyyət və iradə şübhəsiz ki, özü ilə birlikdə Allahın yardımını, bənzərsiz nemətlərini, mərhəmətini və bərəkətini gətirəcək. Şübhəsiz ki, Allah insanı ən düzgün yola qovuşduracaq, şeytanın azğınlıqlarından qoruyacaq. Allaha təslim olan insan görəcək ki, həqiqi səadət və xoşbəxtlik ancaq imanda, tövhiddədir. Buddizm

isə dünya həyatının bir aldatmasıdır, böyük bir səhvdir. Allah möminlərə bu müjdəni verir:

> **"...Kim Allahdan qorxsa, Allah ona bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəcəkdir..." ("Talaq" surəsi, 2-3).**

Buna görə də şirk içində yaşadığını müşahidə edən və bundan peşman olan insan bir an da tərəddüd etmədən bütlərini tərk etməlidir. Buddanı bir tanrı kimi qəbul edib (Allah bütün qüsurlardan uzaqdır) onu hər şeyi görən, eşidən, insana güc-qüvvət verən, hirslənən, xoş münasibət bəsləyən bir büt olaraq qəbul edən insanlar yaxşı fikirləşib bu səhv anlayışdan uzaqlaşmalıdır. Ya da karma kimi heç bir əsası olmayan inanclara qapılaraq axirətin varlığını rədd edənlər ağıllarını işlədərək bu səhvdən uzaqlaşmalıdır. Çünki **"bunların tapındıqları bütlər məhvə məhkumdur, etdikləri əməllər isə puçdur!"** ("Əraf" surəsi, 7/139).

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə ortaya atılmış, ancaq heç bir müvəffəqiyyət qazana bilməmiş elmdən uzaq bir sayıqlamadan başqa bir şey deyil. Canlı aləmin cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə elmin kainatda və canlılarda çox açıq bir “nizam” olmasını sübut etməsi ilə çürümüşdür. Beləliklə, bütün kainatın və canlıların Allah tərəfindən yaradılması həqiqəti elm tərəfindən də sübut olunmuşdur. Təkamül nəzəriyyəsini ayaqda saxlaya bilmək üçün bu gün bütün dünyada aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, bu həqiqətlərin birtərəfli şəkildə izah olunmasına,

elm görüntüsü altında söylənən yalanlara və yol verilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat da həqiqəti ört-basdır edib gizlədə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük yalan olması faktı son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinistlərin iddialarının tamamilə yanlış olduğunu ortaya qoymuş və bu həqiqət bir xeyli alim tərəfindən qeyd edilmişdir. Əlεlxüsus da ABŞ-da biologiya, biokimya, paleontologiya kimi müxtəlif elm sahələrində çalışan alimlər darvinizmin artıq öz qüvvəsini itirdiyini görür, canlıların mənşəyini artıq “idraki nizam” (intelligent design) qavramı əsasında açıqlayırlar. Bəhs edilən “idraki nizam” bütün canlıların Allah tərəfindən yaradılmasının elmi cəhətdən sübut olunmuş bir dəlilidir.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini başqa əksər çalışmalarımızda bütün elmi təfərrüatları ilə qeyd etdik və qeyd etməyə davam edirik. Ancaq bu məsələ çox əhəmiyyətli olduğu üçün burada da bir çox məsələləri xülasə etmək zəruri və faydalıdır.

## Darvini yıxan çətinliklər

Təkamül nəzəriyyəsi tarixi kökləri qədim Yunanıstana qədər gedib çıxan bir təlim olsa da o, yalnız XIX əsrdə əhatəli şəkildə ortaya çıxdı. Nəzəriyyəni elm dünyasının gündəminə salan ən mühüm hadisə Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Cinslərin mənşəyi” adlı kitabı oldu. Darvin bu kitabda canlıların müxtəlif növlərinin Allah tərəfindən ayrı-ayrılıqda yaradılması gerçəyinə qarşı çıxırdı. Darvinə görə, bütün cinslər müştərək bir atadan gəlirdi və onlar

zaman ötdükcə kiçik dəyişikliklər sayəsində bir-birindən fərqlənmişdilər.

Darvinin nəzəriyyəsinin heç bir maddi dəlili yox idi. O, özü də bunu qəbul edirdi ki, bu nəzəriyyə yalnız “ortaya atılan məntiq fikir” idi. Hətta Darvinin öz kitabındakı “Nəzəriyyənin çətinlikləri” başlıqlı geniş hissədə də etiraf etdiyi kimi, bu nəzəriyyə bir çox mühüm sual qarşısında aciz qalırdı.

Darvin belə zənn edirdi ki, onun nəzəriyyəsinin qarşısında dayanan çətinliklər elmin inkişafı ilə aradan qaldırılacaq, yəni elmi kəşflər bu nəzəriyyənin elmi əsaslarını gücləndirəcək. O, bunu kitabının çox yerində bildirmişdi. Ancaq durmadan inkişaf edən elm Darvinin bu ümidlərinin tam əksinə olaraq həmin nəzəriyyənin başlıca müddəalarını bir-birinin ardınca sarsıdırdı.

Darvinizmin elm qarşısındakı məğlubiyyəti üç əsas başlıqda incələnə bilər:

1. Bu nəzəriyyə həyatın Yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.

2. Darvinizm nəzəriyyəsinin ortaya atdığı “təkamül mexanizmləri”nin həqiqətdə təkmilləşdirici təsirə malik olduğunu göstərən heç bir elmi sübut yoxdur.

3. Daşlaşmış bitki qalıqları və torf qatları təkamül nəzəriyyəsinin irəli sürdüyü proqnozların tam əksini ortaya çıxarır.

Bu bölümdə bu əsas müddəaları onların mahiyyəti baxımından incələyəcəyik.

## Keçilə bilməyən ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin ibtidai dünyada təxminən 3,8 milyard il əvvəl meydana çıxan yeganə bir canlı hüceyrədən əmələ gəldiyini iddia edir. Tək hüceyrənin milyonlarla

kompleks canlı növünü necə meydana gətirməsi və belə bir təkamül əgər həqiqətən də olubsa, bunun izlərinin daşlaşmış bitki qalıqlarında, torf qatlarında niyə tapılmaması darvinizm nəzəriyyəsinin cavablandıra bilmədiyi suallardır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül mərhələsinin ilk pilləsində dayanmaq lazımdır: bəhs edilən o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün "ilk hüceyrə"nin heç bir plan və nizam-intizam olmadan, təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən əsas bioloji qanunlara zidd iddiadır.

## "Həyat həyatdan gəlir"

Darvin öz kitabında həyatın mənbəyi barədə heç nə qeyd etməyib. Çünki onun dövründəki ibtidai elm canlıların çox sadə bir quruluşa malik olduğunu güman və iddia edirdi. Orta əsrlərdən bəri böyük etimad bəslənən və "spontan generasiya" adlanan nəzəriyyənin tərəfdarları cansız maddələrin təsadüfən bir yerə yığışıb canlı bir varlıq meydana gətirməsinə inanırdı. Bu dövrdə böcəklərin yemək qalıqlarından, siçanların isə buğdadan əmələ gəldiyinə şübhə etmirdilər. Bunu isbat etmək üçün hətta qəribə təcrübələr də aparmışdılar. Çirkli bir parçanın üstünə bir az buğda qoyulmuş, bir qədər gözləyərlərsə, bu çulğaşmadan siçanların meydana gələcəyi zənn edilmişdi.

Çiy ətin qurd salması da həyatın cansız maddələrdən meydana gəlməsinə dəlil sayılırdı. Halbuki daha sonralar məlum olacaqdı ki, ətin üstündə yaranan qurdlar öz-özünə meydana gəlmir, milçəklərin gətirib ora qoyduğu gözlə görünməyən sürfələrdən çıxırlar.

Darvin özünün “Cinslərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə elm dünyası belə hesab edirdi ki, bakteriyalar cansız maddədən meydana gəlir. Halbuki məşhur fransız bioloqu Luis Paster təkamülün əsası olan bu inancı Darvinin kitabının nəşr edilməsindən beş il sonra qəti olaraq rədd etdi. Paster apardığı çalışma və təcrübələrdən sonra gəldiyi nəticəni belə xülasə edirdi: “Cansız maddələrin həyat əmələ gətirməsinə dair iddia daha qəti olaraq tarixin arxivinə verilmişdir” (Sidney Fox, Klaus Dose, *Molecular Evolution and The Origin of Life*, Marcel Dekker, New York, 1977, s. 2.).

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin gəldiyi nəticələrə qarşı uzun müddət mübarizə apardılar. Ancaq inkişaf edən elm canlı hüceyrənin mürəkkəb quruluşunu ortaya çıxarandan sonra həyatın öz-özünə meydana gəlməsi iddiasının çürüklüyü bir daha və qəti şəkildə aydın oldu.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusu ilə bağlı proseslərin önündə gedən ilk təkamülçü məşhur rus bioloqu Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrənin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq onun bu axtarışların nəticəsiz qaldı. Oparin bunu etiraf etməyə məcbur oldu: “Təəssüf ki, hüceyrənin mənşəyi problemi təkamül nəzəriyyəsini bütövlükdə əhatə edən ən qaranlıq məsələni təşkil edir”

(Alexander I. Oparin, *Origin of Life*, Dover Publications, New York, (1936), 1953 (reprint), s. 196.).

Oparinin arxasınca gedən təkamülçülər həyatın mənşəyi mövzusunu bir yerə çıxara bilmək üçün təcrübələr aparmağa səy göstərdilər. Bu təcrübələrin ən məşhuru amerikalı kimyagər Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. S.Miller ibtidai dünyanın atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə vasitəsilə birləşdirərək və bu reaksiyaya enerji əlavə edərək proteinlərin tərkibindəki bir neçə üzvi molekulu (aminoasit) sintez etdi. Həmin illərdə əhəmiyyətli bir mərhələ kimi təqdim olunan bu təcrübənin nəticəsiz qalması və təcrübədə itifadə edilən atmosferin gerçək dünya atmosferindən çox fərqli olması gələcək illərdə ortaya çıxacaqdı ("New Evidence on Evolution of Early Atmosphere and Life", *Bulletin of the American Meteorological Society*, c. 63, Kasım 1982, s. 1328-1330).

Uzun müddət davam edən bu səssizlikdən sonra Millerin özü də istifadə elədiyi atmosferin həqiqi olmadığını etiraf etdi (Stanley Miller, *Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules*, 1986, s. 7.).

Həyatın mənşəyi məsələsini açıqlamaq üçün təkamülçülərin XX əsrdə apardığı bütün səylər nəticəsiz qaldı. San Dieqo Skripps Institutundan olan tanınmış geokimyaçı Ceffri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə nəşr edilən bir məqalədə bu həqiqəti belə qəbul edir: "Bu gün XX əsri arxada qoyarkən hələ XX əsrə daxil olanda malik olduğumuz ən böyük həllini tapmamış problemlə qarşı-qarşıyayıq: həyat Yer üzündə necə başladı?" (Jeffrey Bada, *Earth*, Şubat 1998, s. 40.).

## Həyatın kompleks quruluşu

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda çox ciddi çətinliyə düşməsinin əsas səbəbi ən sadə hesab edilən canlı orqanizmlərin inanılmayacaq dərəcədə qarmaqarışıq quruluşa malik olmasıdır. Canlı varlığın hüceyrəsi insan övladının düzəltdiyi texniki məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında da cansız maddələri bir yerə yığaraq canlı hüceyrə əldə etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər heç vaxt təsadüflərlə izah edilməyəcək qədər çoxdur. Hüceyrənin əsaslarından biri olan proteinlərin təsadüfi olaraq sintezləşmə ehtimalı isə 500 aminoasitlik yuvarlaq bir protein üçün $10.^{950}$-də 1-dir. Ancaq riyaziyyatda $10.^{50}$-də 1-dən aşağı olanlar "imkansız" sayılır. Hüceyrənin nüvəsində yerləşən və özündə genetik bilgini gizlədən DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın əgər kağıza köçürülməyə çalışılsa, 500 səhifədən ibarət olan 900 cildlik bir kitabxananın meydana gələcəyi hesablanır. Bu nöqtədə çox maraqlı bir dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş proteinlərin köməyi ilə cütləşə bilir. Ancaq bu proteinlərin sintezi də ancaq DNT-dəki məlumatlara uyğun olaraq həyata keçir. Bir-birinə bağlı olduqlarına görə cütləşmənin meydana gələ bilməsi üçün onların ikisinin də eyni anda mövcud olması lazımdır. Bu isə həyatın özü-özündən meydana gəlməsi barədəki ssenarini çətinliyə salır. San Dieqo Kaliforniya Universitetindən məşhur təkamülçü alim, professor Lesli Orgel (Leslie Orgel) "Scientific American" jurnalının 1994-cü ilin oktyabr ayındakı sayında bu həqiqəti belə etiraf edir:

"Son dərəcə kompleks quruluşlara sahib olan proteinlərin və nuklein turşularının (RNA və DNA) eyni yerdə və eyni vaxtda təsadüf nəticəsində əmələ gəlməsi hətta ehtimaldan da həddindən artıq uzaqdır. Ancaq bunların biri olmadan digərini əldə etmək də

mümkün deyil. Dolayısı ilə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının heç vaxt mümkün olmaması nəticəsinə gəlmək məcburiyyətində qalır” (Leslie E. Orgel, "The Origin of Life on Earth", *Scientific American*, c. 271, Ekim 1994, s. 78.).

Şübhəsiz ki, əgər həyatın təsadüflərlə ortaya çıxmasının qeyri-mümkünlüyü təsdiqlənirsə, bu vəziyyətdə onun fövqəltəbii şəkildə yaradıldığını qəbul etmək lazımdır. Bu həqiqət isə əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsinin açıq-aşkar mənasızlığını ortaya çıxarır.

## Təkamülün xəyali mexanizmləri

Darvinizm nəzəriyyəsini puç edən başqa ikinci böyük məsələ bu nəzəriyyənin “təkamül mexanizmləri” kimi ortaya atdığı iki anlayışın da əsl həqiqətdə heç bir təkmilləşdirici gücə malik olmamasının sübuta yetirilməsidir. Darvin ortaya atdığı təkamül iddiasını tam şəkildə “təbii seleksiya” mexanizminə bağlamışdı. Onun bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da görünürdü: “Cinslərin mənşəyi təbii seleksiya yolu ilə”.

Təbii seleksiya təbii seçmə deməkdir və təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun olan güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən hürküdülən bir maral sürüsündə daha sürətli qaça bilənlər həyatda qalacaqlar. Beləliklə, maral sürüsü sürətlilərdən və güclülərdən meydana gəlməlidir. Ancaq bu mexanizm marallları əlbəttə, təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Dolayısı ilə təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə malik deyil. Darvin də bu həqiqətin fərqində idi və “Cinslərin mənşəyi” kitabında **“faydalı dəyişikliklər meydana gəlmədiyi vaxtda təbii seleksiya heç nə edə bilməz”** demək məcburiyyətində qalmışdı (Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, s. 189).

## Lamarkın təsiri

Yaxşı, bəs bu “faydalı dəyişikliklər” necə meydana gəldi? Darvin öz dövrünün ibtidai elm anlayışı daxilində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloqu Lamarka görə, canlılar həyatları boyu məruz qaldıqları fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə ötürülərək yığılan bu xüsusiyyətlər nəticəsində isə yeni cinslər meydana çıxır. Məsələn, Lamark deyirdi ki, zürafələr ceyranlardan əmələ gəliblər. Belə ki, hündür ağacların yarpaqlarını yemək üçün səy göstərərkən onların nəsildən-nəslə boyları uzanıb.

Darvin də buna oxşar misallar gətirmiş, məsələn, “Cinslərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların bir müddət sonra balinalara çevrildiyini iddia etmişdi (Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, s. 184).

Amma Mendel tərəfindən kəşf olunmuş və XX əsrdə inkişaf edən genetika elmi ilə öz qəti təsdiqini tapmış atavizm qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini qəti olaraq darmadağın etdi. Beləliklə, təbii seleksiya bütünlüklə təsirsiz bir mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çözüm tapa bilmək üçün 1930-cu illərin axırlarında "Müasir sintetik nəzəriyyə"ni, daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiya konsepsiyasına "faydalı dəyişikliklərin səbəbi" kimi mutasiyaları,yəni canlıların genlərinə radiasiya kimi xarici təsirlərin, ya da köçürmə səhvləri nəticəsində meydana gələn pozuntuları əlavə etdi.

Bu gün dünyada təkamül adına hələ də qəbul edilən model neodarvinizmdir. Nəzəriyyə Yer üzündə olan milyonlarla canlı növünün, bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının "mutasiyalara", yəni genetik pozuntulara əsaslanan bir mərhələ nəticəsində əmələ gəldiyini iddia edir. Ancaq nəzəriyyəni kəsərsiz edən açıq bir elmi həqiqət var: **mutasiyalar canlıları inkişaf etdirməz, əksinə, onlara həmişə zərər verərlər.**

Bunun səbəbi çax sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində meydana gələn hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G.Ranganathan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı ehtimalla təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamülçü bir inkişafa səbəb ola bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə əlahiddələşmiş bir orqanizmdə meydana gələn təsadüfi bir hal ya təsirsiz olacaq, ya da zərərli. Bir qol saatında meydana gələcək təsadüfi dəyişiklik onu inkişaf etdirməyəcəkdir. Böyük ehtimalla ona zərər verəcək və ya ən yaxşı ehtimalla təsirsiz qalacaq. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, əksinə, onu dağıdar" (B. G. Ranganathan, *Origins?*, The Banner Of Truth Trust, Pennsylvania, 1988.).

Bu günə qədər heç bir faydalı mutasiya nümunəsi olmayıb. Bütün mutasiyaların zərərli olduğu müəyyənləşdi. Aydın oldu ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" kimi göstərdiyi mutasiyalar həqiqətdə canlılara ancaq ziyan verən, onları şikəst edən bir genetik hadisədir. (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəng xəstəliyidir). Əlbəttə, zərərverici bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "özbaşına heç nə edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi"nin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə isə təkamül deyilən xəyali mərhələ də ola bilməz.

## Daşlaşmış qalıqlarda keçid formalarının izi yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin baş verməməsinin ən açıq sübutu isə daşlaşmış bitki qalığı qatları, torf laylarıdır. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birindən törəmişdir. İlk canlı növü vaxt keçəndən sonra başqa formaya çevrilmişi və bütün cinslər bu şəkildə ortaya çıxmışdır. Nəzəriyyəyə görə, bu dəyişiklik yüz milyon illər boyu sürərək mərhələ-mərhələ davam etmişdir.

Bu vəziyyətdə iddia edilən uzun dəyişiklik müddəti boyunca saysız-hesabsız "ara cinslər"in meydana gəldiyini və yaşadığını qəbul etmək lazımdır. Məsələn, keçmişdə özündə balıq xüsusiyyətlərinin olmasına baxmayaraq bir yandan da bəzi sürünənlərin xüsusiyyətlərini qazanmış yarı balıq-yarı sürünən canlılar yaşamış olmalı idi. Yaxud da sürünənlərin xüsusiyyətlərinə malik olarkən bir yandan da bəzi quş xüsusiyyətləri qazanmış sürünən-quşlar ortaya çıxmalı idi. Ancaq onlar keçid mərhələsində olduqları üçün şikəst,

nöqsanlı və qüsurlu canlılar olmalı idilər. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri məxluqlara **"ara keçid forması"** adını verirlər.

Əgər həqiqətən keçmişdə bu cür canlılar yaşayıbsa, onda onların sayları və növləri milyonlarla, hətta milyardlarla olmalı idi. Və bu qəribə canlıların qalıqlarına mütləq daşlaşmış qalıqlarda, torf laylarında rast gəlinməli idi. Darvin "Cinslərin mənşəyi"ndə bunu belə açıqlamışdır: "Əgər nəzəriyyə düzdürsə, cinsləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşamasına dair sübutlar da təkcə daşlaşmış bitki qalıqları qatları arasında tapıla bilər (Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, s. 179).

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortalarından bu yana dünyanın dörd bir tərəfində daşlaşmış qalıqlar tədqiq edilsə də həmin laylarda bu ara keçid formalarına heç vaxt rast gəlinməyib. Aparılmış qazıntı və araşdırmalar zamanı əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə olaraq göstərdi ki, canlılar Yer üzündə birdən-birə, nöqsansız və qüsursuz bir şəkildə ortaya çıxıblar.

Tanınmış ingilis paleontoloqu Derek U.Eger özü təkamülçü olsa da bu gerçəyi belə etiraf edir:

"Problemimiz budur ki, geoloji layları, daşlaşmış qatları bütün təfərrüatı ilə araşdıranda, istər cinslər, istərsə də siniflər səviyyəsində olsun, davamlı olaraq həmişə eyni həqiqətlə qarşılaşırıq: mərhələli təkamüllə inkişaf edən yox, Yer kürəsində birdən-birə meydana gələn qruplar görürük (Derek A. Ager, *"The*

*Nature of the Fossil Record", Proceedings of the British Geological Association*, c. 87, 1976, s. 133).

Yəni bütün canlı növləri daşlaşmış laylarda aralarında heç bir keçid forması olmadan, nöqsansız şəkildə ani olaraq ortaya çıxırlar. Bu isə Darvinin düşüncülərinin tam əksi və canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün özü-özündən təkmilləşməsinin, heç bir ata olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının yeganə izahı o cinsin yaradılmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül hazırda yaşayan canlıların mənşəyi haqqında iki mümkün açıqlamalardır. Canlılar dünya üzərində ya tamamilə mükəmməl və nöqsansız bir şəkildə ortaya çıxmışdır, ya da belə olmamışdır. Əgər belə olmayıbsa, onda bir dəyişiklik mərhələsi sayəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərinin təkamülü yolu ilə meydana gəlməlidirlər. Amma onlar əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxıblarsa, o halda sonsuz güc sahibi bir ağıl tərəfindən yaradılmalıdırlar (Douglas J. Futuyma, *Science on Trial*, Pantheon Books, New York, 1983, s. 197).

Daşlaşmış qalıqlar da canlıların Yer üzündə qüsursuz və mükəmməl şəkildə ortaya çıxdığını göstərir. Yəni **cinslərin mənşəyi Darvinin iddiasının əksinə olaraq təkamül deyil, yaradılışdır.**

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəmə gətirdiyi məsələ insanın mənşəyi məsələsidir. Bu məsələdəki darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi məxluqlardan əmələ gəldiyini bildirir. 4-5 milyon il bundan əvvəl başlandığı qəbul edilən bu mərhələdə müasir insanla onun əcdadları

arasında bəzi “ara forma”ların yaşadığı iddia olunur. Həqiqətdə isə bütünlüklə xəyali olan bu ssenaridə dörd əsas “kateqoriya” sadalanır:

*1. Australopithecus*

*2. Homo habilis*

*3. Homo erectus*

*4. Homo sapiens.*

Təkamülçülər insanların guya ilk meymunabənzər əcdadlarına “cənub meymunu” mənasına gələn “australopithecus” adını verirlər. Bu canlılar həqiqətdə nəsli tükənmiş bir meymun cinsindən başqa bir şey deyil. İngiltərə və ABŞ-dan olan lord Soli Zakerman (Lord Solly Zuckerman) və prof. Çarlz Oksnerd (Charles Oxnard) kimi dünyanın iki məşhur anatomistinin australorithecus nümunələri üzərində apardıqları çox əhatəli çalışmalar bu canlıların yalnız nəsli kəsilmiş bir meymun cinsinə aid olmasını və onların insanlarla heç bir oxşarlığa malik olmadığını göstərmişdir (Solly Zuckerman, *Beyond The İvory Tower*, Toplinger Publications, New York, 1970, ss. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", *Nature*, c. 258, s. 389).

Təkamülçülər insan təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan olaraq təsnif edirlər. İddialara görə, homo sırasındakı canlılar australorithecus-lardan daha çox inkişaf etmişdilər. Təkamülçülər bu fərqli canlılara aid fəsilləri ard-arda düzərək xəyali bir təkamül cədvəli təşkil edirdi. Bu cədvəl xəyalidir, çünki həqiqətdə bu müxtəlif siniflər arasında təkamül əlaqəsinin olduğu heç vaxt sübut edilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm müdafiəçilərindən biri olan Ernst Meyr (Ernst Mayr) “Homo sapiensə uzanan zəncir həqiqətdə Itkindir” deyərək bunu qəbul edir (J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", *Scientific American*, Aralık 1992).

Təkamülçülər australorithecus-homo habilis-homo erectus-homo sapiens sıralamasını tərtibləyərkən bunların hər birinin ondan sonra gələnin atası olması təsvirini yaratmağa çalışırlar. Halbuki paleoantropoloqların son tapıntıları australopithecus, homo habilis və homo erectus-un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını sübut etmişdir (Alan Walker, *Science*, c. 207, 1980, s. 1103; A. J. Kelso, *Physical Antropology*, 1. baskı, J. B. Lipincott Co., New York, 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge University Press, Cambridge, 1971, s. 272).

Homo erectus sinifinə daxil edilən insanların bir hissəsi müasir dövrlərə qədər, homo sapiens neandertal və homo sapiens isə sapiens (müasir) insanla eyni şəraitdə yan-yana yaşamışlar (*Time*, dekabr 1996).

Bu isə əlbəttə, bu siniflərin bir-birinin əcdadı olması iddiasının qüvvədə qalmadığını aydın şəkildə ortaya qoyur. Harvard Universiteti (ABŞ) paleontoloqlarından Stefan Cey Quld (Sterhen Yay Gould) özü bir təkamülçü olsa da darvinizm nəzəriyyəsinin bu çətinliyini belə izah edir:

Əgər bir-biri ilə paralel olaraq yaşayan üç müxtəlif hominid (insanabənzər) cizgisi varsa, elə isə bizim nəsil ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən meydana çıxmış ola bilməz. Bunların biri digəri ilə müqayisə ediləndə təkamül nəticəsində bir inkişaf ardıcıllığı göstərə bilmirlər (S. J. Gould, *Natural History*, c. 85, 1976, s. 30).

Qısası, mətbuatda və ya dərs kitablarında qeyd edilən və xəyalların məhsulu olan bəzi “yarımeymun, yarıinsan” canlıların şəkilləri ilə, yəni ancaq təbliğat yolu ilə güclə saxlanmağa çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə australopithecus fəsilləri üzərində 15 il tədqiqat aparan Ingiltərənin ən məşhur və mötəbər alimlərindən biri lord Soli Zakerman özü bir təkamülçü idi, amma o da ortada meymunabənzər canlılardan insana gəlib çıxan həqiqi bir nəsil ağacının olmadığı nəticəsinə gəlmişdir.

Lord S.Zakerman bir də maraqlı bir “elm şkalası” hazırlamışdı. O, elmi olaraq qəbul etdiyi elm sahələrindən elmdən uzaq olaraq qəbul etdiyi elm sahələrinə qədər bir cədvəl təşkil etmişdi. Lord S.Zakermanın bu cədvəlinə görə, elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra biologiya elmləri, sonra da sosial elmlər yerləşir. Cədvəlin sonunda, yəni ən elmdən kənar hesab edilən hissədə isə telepatiya, “altıncı hiss” kimi “hissdənkənar dərk etmək” anlayışı, bir də “insanın təkamülü” vardır! Lord Zakerman cədvəlin bu hissəsini belə izah edir:

Obyektiv gerçəkliyin sahəsindən çıxıb da bioloji elm olaraq qəbul edilən bu sahələrə, yəni hissdənkənar idraka və insanın daşlaşmış tarixinin izah edilməsinə daxil olanda təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, öz nəzəriyyələrinə qəti olaraq inanan bu adamların hətta bəzi ziddiyyətli qərarları eyni anda qəbul etməsi də mümkündür (Solly Zuckerman, *Beyond The Ivory Tower*, Toplinger Publications, New York, 1970, s. 19).

İnsanın təkamülü nağılı da öz nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi daşlaşmış qalıqları əvvəlcədən qəbul etdikləri fikirlərinə uyğun olaraq izah etməkdən ibarətdir.

## Darvin düsturu!

Bura qədər qeyd etdiyimiz bütün texniki sübutlarla yanaşı təkamülçülərin necə cəfəng bir inanca malik olmasını bir də uşaqların da başa düşəcəyi qədər aydın bir misalla xülasə edək.

Təkamül nəzəriyyəsi canlı aləmin təsadüfən meydana gəldiyini iddia edir. Dolayısı ilə bu iddiaya görə, cansız və şüursuz atomlar bir yerə yığılaraq əvvəlcə hüceyrəni, sonra da eyni atomlar hər hansısa bir şəkildə digər canlıları və insanı meydana gətirmişdir. İndi fikirləşək. Canlı aləmin əsasları olan karbon, fosfor, azot, potasium bircə canlı da meydana gətirə bilməzlər. İstəsəniz bu məsələdə bir "təcrübə" aparaq və təkamülçülərin əslində müdafiə etdikləri, ancaq uca səslə deyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" ilə incələyək.

Təkamülçülər canlı aləmin əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən çoxlu sayda böyük çənin içinə bol miqdarda qoysunlar. Hətta adi hallarda olmayan, ancaq bu qarışığın içində olmalıdır dedikləri bəzi ləvazimatları da bu çənə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər (təbii şəraitdə əmələ gəlməsi mümkün olmayan) aminosit, istədikləri miqdarda da (birinin də təsadüfən meydana gəlmə ehtimalı $10^{-950}$ olan) protein doldursunlar. Bu qarışığa istədikləri kimi istilik və rütubət versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Çənlərin yanına da bu dünyanın ən məşhur alimlərini dəvət etsinlər. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il davamlı olaraq çənlərin yanında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtləri mövcud olmasına inanırlarsa, hamısından istifadə etmək sərbəst olsun. Ancaq nə edirlərsə-etsinlər, o çənlərdən qətiyyən bir canlı çıxara bilməyəcəklər. Zürafələri, şirləri, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, yemişləri,

qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuzquşularını, qırqovulları, müxtəlif rəngli kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Burada adını qeyd etdiyimiz bu canlı varlıqların tək bir hüceyrəsini də əldə edə bilməzlər.

Qısası, şüursuz **atomlar bir yerə yığılaraq hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni bir qərar verərək bir hüceyrəni iki yerə ayıran, daha sonra bir-birinin ardınca fərqli qərarlar verən, elektron mikroskopunu kəşf edən, sonra öz hüceyrə quruluşunu bu mikroskopun altında incələyən professorları da əmələ gətirə bilməzlər.

**Maddə ancaq Allahın üstün yaratması ilə canlı ola, həyat tapa bilər.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə təfəkkür və idraka tamamilə zidd olan bir cəfəngiyyatdır. Təkamülçülərin ortaya atdığı iddialar ətrafında bir az düşünmək haqqında yuxarıda danışılan nümunədə olduğu kimi bu həqiqəti də aydın şəkildə göstərir.

## Gözdəki və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin heç vaxt izah edə bilməyəcəyi başqa bir məsələ isə gözdəki və qulaqdakı mükəmməl hissetmə (lamisə) keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “necə görürük?” sualına qısa da olsa cavab verək. Bir cisimdən gələn şüalar gözə tərs olaraq düşürlər. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa tərəfindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə ötürülür. Bu elektrik siqnalları sıra ilə davam edən icraatlardan sonra beyindəki bu mərkəzdə görüntü olaraq hiss edilir və görülür.

Bu məlumatdan sonra indi bir az fikirləşək. Beyin işıq üçün qapalıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər gedib çıxa bilməz. Görüntü mərkəzi deyilən yer zülmət qaranlıq, işığın heç vaxt çata bilmədiyi, bəlkə də heç vaxt rast gəlmədiyiniz qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlığında işıqlı, parlaq bir dünyanı seyr edirsiniz. Həm də bu o qədər aydın və keyfiyyətli bir görüntüdür ki, XXI əsrin texnologiyası da hər cür imkan sahibi olmasına baxmayaraq bu görüntünü əldə edə bilməmişdir. Məsələn, hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın. Sonra başınızı qaldırın və ətrafınıza nəzər salın. İndi gördüyünüz aydınlıq və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin istehsal etdiyi ən mükəmməl televizor ekranı da verə bilməz. 100 ildir minlərlə mühəndis bu aydınlığı əldə etməyə çalışır. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, tədqiqatlar aparılır, planlar və layihələr hazırlanır. Yenə də bir televiziya ekranına baxın, bir də əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizor ekranı sizə ikiölçülü bir görüntü göstərir, halbuki siz üçölçülü, dərin bir perspektivi görürsünüz.

Uzun illərdir on minlərlə mühəndis üçölçülü televizor hazırlamağa, gözün görmə keyfiyyətinə yiyələnməyə səy göstərir. Bəli, üçölçülü televizor sistemini hazırlaya bildilər, ancaq onu da eynəksiz görmək mümkün deyil. Bu eyni zamanda süni bir üçölçülü sistemdir. Arxa tərəf daha bulanıq, qarşı tərəf isə kağızdan hazırlanmış dekorasiya kimi görünür. Heç vaxt gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü ola bilməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi baş verir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü təşkil edən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi bir adam

sizə otağınızın bir küncündəki televizorun təsadüflər nəticəsində meydana gəldiyini, “atomlar bir yerə toplandı və bu göstərən cihazı meydana gətirdi” desə, nə fikirləşərsiniz? Minlərlə adamın bir yerə yığışaraq düzəldə bilmədiyini şüursuz atomlar necə edə bilər?

Gözün gördüyündən daha ibtidai olan bu görüntünü meydana gətirən cihaz təsadüfən meydana gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi aydın məsələdir.

Bu məsələ qulaq üçün də eynidir. Xarici qulaq ətrafdakı səsləri qulaq çömçəsi vasitəsilə yığıb orta qulağa ötürür. Orta qulaq aldığı səs tirtəyişlərini gücləndirərək daxili qulağa ötürür. Daxili qulaq da bu titrəyişləri elektrik siqnallarına döndərərək beyinə göndərir. Eynilə görmə məsələsində olduğu kimi eşitmək icraatları da beyindəki eşitmə mərkəzində həyata keçir.

Gözdəki vəziyyət qulaq üçün də qüvvədə qalır, yəni beyin işığa olduğu kimi səsə də qapalıdır, səsi keçirmir. Dolayısı ilə ətraf nə qədər gurultulu da olsa beynin içi tamamilə səssizdir. Buna baxmayaraq ən dəqiq səslər beyində hiss edilir. Səs keçirməyən beynimizdə bir orkestrin simfoniyalarını eşidərsiniz, izdihamlı bir məkanın bütün gurultusunu eşidərsiniz. Ancaq həmin anda həssas bir cihazla beynimizin içindəki səs səviyyəsi ölçülsə, burada mütləq bir səssizliyin hakim olduğu görünəcək.

Dəqiq bir görüntü əldə edə bilmək üçün indiyə qədər texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər onlarla ildir ki, davam edir. Səsi qeyd etmək cihazları, çoxlu elektrik aləti, səsi qeyd edən musiqi sistemləri bu səylərin bəzilərinin nəticələridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada işləyən minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq qulaqdakı dəqiq və keyfiyyətli bir səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi alətini fikirləşin. Səsi

qeyd edəndə mütləq səsin bir hissəsi itir və ya az da olsa mütləq xışıltı əmələ gəlir. Musiqi cihazını açanda musiqi başlamamışdan əvvəl bir xırıltılı səsi mütləq eşidəcəksiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər çox dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi xırıltılı və ya pozuntulu səs hiss etməz, səs necədirsə, onu tam və dəqiq olaraq eşidir. Bu vəziyyət insan yaradıldığı gündən indiyə qədər bu cürdür.

Bu günə qədər insan oğlunun istehsal etdiyi, hazırladığı heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və uğurlu bir lamisə sistemi ola bilməmişdir.

Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa çox böyük həqiqət var.

## Beynin içindəki görən və eşidən şüur kimə aiddir?

Beynin içində cürbəcür rəngli bir dünyanı seyr edən, simfoniyaları, quşların səsini eşidən, çiçəkləri iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə meydana gəlməsinə dair çoxlu təfərrüatlar oxuya bilərsiniz. Ancaq bu məsələ haqqındakı həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz ki, beyində bu elektrik siqnallarını görüntü, səs, iy və hiss olaraq qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyni təşkil edən sinirlərə, yağ təbəqəsinə və sinir hüceyrələrinə aid deyil. Buna görə də hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist materialistlər bu suallara heç

vaxt cavab verə bilmir. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruh görüntünü seyr etmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyac hiss etməz. Bunlardan da başqa fikirləşmək üçün beyinə də ehtiyacı olmaz.

Bu aydın və elmi həqiqətləri oxuyan hər bir insanın beynin daxilindəki bir neçə santimetrlik, qapqaranlıq məkana bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığışdıran Allahı fikirləşib, Ondan qorxub Ona sığınması lazımdır.

## Materialist inanc

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi kəşflərlə açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, ortaya atdığı təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və dünyanın daşlaşmış qatları darvinizm nəzəriyyəsinin vacib saydığı keçid formalarının yaşamadıqlarını göstərir. Belə də təkamül nəzəriyyəsinin əlbəttə ki, elmə zidd bir fikir kimi kənara atılması lazımdır.

Tarix boyu təkamül modeli kimi bir çox düşüncə sistemi elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsini təkidlə elmi gündəmə gətirmək istəyirlər. Hətta bəzi adamlar bu nəzəriyyənin tənqidini “elmə hücum” kimi qələmə verməyə çalışır. Görəsən nəyə görə?

Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi mühitlər üçün heç cür əldən buraxılmayacaq ehkamçı bir inanc olmasıdır. Bu adamlar materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə verilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər.

Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur genetik və tanınmış təkamülçü olan Riçard Levontin "əvvəlcə materialist, sonra alim" olduğunu belə etiraf edir:

Bizim materializmə bir etiqadımız var, aprior (əvvəlcədən qəbul edilmiş, doğru sayılan, təcrübədən asılı olmayan, təcrübədən qabaq mövcud olan) bir inancdır bu. Bizi dünyaya materialist bir açıqlama gətirməyə məcbur edən şey elmin istiqamət və qaydaları deyil. Əksinə, materializmə olan aprior bağlılığımız üzündən dünyaya materialist açıqlama gətirən araşdırma üsullarını və qavramları təqdir edirik. Materializm mütləq doğru olduğuna görə də ilahi bir açıqlamanın səhnəyə daxil olmasına icazə verə bilmərik (Richard Lewontin, "The Demon-Haunted World", *The New York Review of Books*, 9 yanvar 1997, s. 28).

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq ucbatından yaşadılan bir ehkam olmasının açıq ifadəsidir. Bu ehkam maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Buna görə də cansız, məntiqsiz maddənin həyatı yaratdığına inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, qaplanların, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların cansız maddənin öz içindəki dəyişikliklərə, yəni yağan yağışla, çaxan şimşəklə onun içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağla, həm də elmi gerçəkliklərə zidd qənaətdir. Amma darvinistlər "ilahi bir açıqlamanın səhnəyə girməməsi" üçün bu qənaəti müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə əvvəlcədən qəbul edilmiş materialist düşüncə ilə baxmayan hər kəs isə bu açıq gerçəyi görəcəkdir: "Bütün canlılar üstün bir gücə, məlumata və ağla sahib olan bir Yaradanın əsərləridir. O Yaradan bütün kainatı yoxdan var edən, canlıları da yaradıb şəkilləndirən Allahdır".

## Təkamül nəzəriyyəsi bəşər tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, əvvəlcədən qəbul edilmiş mənfi fikirləri olmayan, heç bir ideologiyanın təsiri altında qalmayan, ancaq ağlını və məntiqini işlədən hər bir insan elmdən və mədəniyyətdən uzaq olan cəmiyyətlərin xurafatlarını əks etdirən təkamül nəzəriyyəsinin inanılması mümkün olmayan bir iddia olduğunu asanlıqla başa düşəcəkdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə çoxlu atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışmasından vaxt ərzində fikirləşən, dərk edən, kəşflər edən professorların, tələbələrin, Eynşteyn, Hubbl kimi elm adamlarının, Frenk Sinatra, Çarlton Heston kimi sənətçilərin, bununla yanaşı ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəni, təhsilli insanlardır. Buna görə də təkamül nəzəriyyəsi üçün “dünya tarixinin ən böyük və ən təsirli sehri” ifadəsini işlətmək daha münasib olacaq. Çünki bəşər tarixində insanların ağlını başından bu dərəcədə alan, ağıl və məntiqlə fikirləşməsinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia da yoxdur. Bu, qədim misirlilərin günəş tanrısı Raya, bəzi afrikalı qəbilələrin totemlərə, Səba xalqının günəşə sitayiş etməsindən, Hz. İbrahimin tayfasının öz əlləri ilə düzəltdiyi bütlərə, Hz.Musanın xalqının qızıldan düzəltdiyi buzova sitayiş etməsindən daha dəhşətli və qəbuledilməz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allahın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların idrak qabiliyyətinin qapanacağını və həqiqətləri görməkdən aciz

vəziyyətə düşəcəyini əksər ayələrində bildirir. Bu ayələrdən bəziləri bunlardır:

**"Həqiqətən, inkar edənləri əzabla qorxutsan da, qorxutmasan da onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!" ("Bəqərə", 2/6-7).**

**"...Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!" ("Əraf", 7/179).**

Allah başqa ayələrdə isə bu insanların möcüzələr görsələr də inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**"Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar, yenə də "Gözümüz bağlanmış, biz sehrlənmişik" deyərlər" ("Hicr", 15/14-15).**

Bu qədər geniş bir kütlənin üzərində bu sehrin təsirli olması, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildir bu sehrin pozulmaması isə sözlərlə deyilə bilməyəcək qədər heyrətamiz bir vəziyyətdir. Çünki bir və ya bir neçə insanın imkan xaricində olan ssenarilərə, cəfəngiyyat və məntiqsizliklərlə dolu iddialara inanması aydın ola bilir. Ancaq dünyanın dörd bir tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə yığılıb, fövqəladə bir təşkilatlanma, nizam-intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, canlı aləm üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa bir izahı və adı yoxdur.

Həmçinin Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi adamların etdiyi sehrlərlə insanları təsir altına aldıqlarını

Hz.Musa və Firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz.Musa Firona haqq dini başa salanda Firon Hz.Musaya öz "elmli sehrbazları" ilə insanların yığışdıqları bir yerdə qarşılaşmalarını istəyir. Hz.Musa sehrbazlarla qarşılaşanda əvvəlcə sehrbazlara onların mərifətlərini göstərməsini əmr edir:

> **"(Musa:) "Siz atın!" dedi. Onlar (əllərindəkini yerə) atdıqda adamların gözlərini bağlayıb onları qorxutdular və böyük bir sehr göstərdilər" ("Əraf", 7/116).**

Göründüyü kimi, Fironun sehrbazları gözbağlamalarla - Hz.Musa və ona inananlar istisna olmaqla - insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarının əvəzində Hz.Musanın göstərdiyi dəlil onların bu sehrini, ayələrin ifadəsi ilə desək, "uydurub düzəltdikləri bütün şeyləri udmuş", yəni təsirsiz hala gətirmişdir:

> **"Biz də Musaya: "Əsanı tulla!" deyə vəhy etdik. Bir də baxıb gördülər ki, əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. Sehrbazlar orada məğlub edildilər və xar olaraq geri döndülər" ("Əraf", 7/117-119).**

Ayədə də bildirildiyi kimi, əvvəl insanları sehrləyərək öz təsiri altına bu adamların etdiklərinin bir saxtakarlıq olmasının üzə çıxıb təsdiqlənməsindən sonra qeyd edilən adamlar pis vəziyyətə düşmüşdülər. Günümüzdə də bir sehrin təsiri ilə elm pərdəsi altında çox cəfəng iddialara inananlar və bunları müdafiə etməyə həyatlarını həsr edənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə açığa çıxanda və "sehr pozulanda" onlar da pis vəziyyətə düşəcəklər.

Təkamül nəzəriyyəsini müdafiə edən və ateist bir filosof olan Malkolm Maqqric (Malcolm Muggeridge) belə bir vəziyyətdən qorxduğunu belə etiraf edir:

**Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrin gələcəyin tarix kitablarındakı ən böyük gülünc vəziyyətlərdən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən olan bir hipotezin inanılmaz bir sadəlövhlüklə qəbul edilməsini heyrət içində qarşılayacaqlar (Malcolm Muggeridge, *The End of Christendom*, Grand Rapids: Eerdmans, 1980, s. 43).

Bu gələcək uzaqda deyil, əksinə, çox yaxın bir gələcəkdə insanlar "təsadüflər"in tanrı ola bilməyəcəyini başa düşəcəklər və təkamül nəzəriyyəsi bəşər tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq tanıdılacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd bir tərəfində özünün insanlar üzərindəki təsirini azaltmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən əksər insanlar bu yalana necə inandıqlarını heyrət və təəccüb içində götür-qoy edirlər.

**"Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Hər şeyi bilən, hökm və hikmət sahibi Sənsən"**
**("Bəqərə", 2/32).**

## İQTİBASLAR


1- Ebu Davud, Edeb 20 ; Müslim, Cihad 6; Kütüb-i Sitte, 7. cilt, s. 294
2- Ramuz El-Ehadis, cilt 1, s. 137
3- Buddhism, The Catholic Encyclopedia, cilt 3, Copyright © 1908 by Robert Appleton Company

Online Edition Copyright © 1999 by Kevin Knight, http:// www.newadvent.org
4- Edward Washburn Hopkins, The Religions of India, Boston, 1995, s. 319
5- Dr. Ali İhsan Yitik, Hint Kökenli Dinlerde Karma İnancının Tenasüh İnancıyla İlişkisi, s.130-131
6- Sean Robsville, Arguments Against Buddhism, http:// www.geocities.com/scimah/
7- Huxley, Evolution and Ethics, s. 74; Vijitha Rajapakse "Buddhism in Huxley's Evolution and Ethics: A note on a Victorian evaluation and its comparativist dimension", Philosophy East and West, cilt 35, no. 3 (Temmuz 1985), s. 298
8- Huxley, Evolution and Ethics, s. 90; Vijitha Rajapakse "Buddhism in Huxley's Evolution and Ethics: A note on a Victorian evaluation and its comparativist dimension", Philosophy East and West, cilt 35, no. 3 (Temmuz 1985), s. 301
9-Davids. Buddhism, s. 79; Vijitha Rajapakse "Buddhism in Huxley's Evolution and Ethics: A note on a Victorian evaluation and its comparativist dimension", Philosophy East and West, cilt 35, no. 3 (Temmuz 1985), s. 299
10- Jason DeBoer, "Sublime Hatred: Nietzsche's Anti-Christianity", http:// www.absinthe-literary-review.com/ archives/fierce6.htm
11- Jason DeBoer, "Sublime Hatred: Nietzsche's Anti-Christianity", ttp:// www.absinthe-literary-review.com/ archives/fierce6.htm
12- Morrison, Robert G., Nietzsche and Buddhism: A Study in Nihilism and Ironic Affinities, By Reviewed by David R. Loy. http:// ccbs.ntu.edu.tw//FULLTEXT/JR-EPT/loy.htm
13- Michael Baigent, Richard Leigh, Henry Lincoln, Messianic Legacy, London: Corgi Books, 1991, s. 184
14- "Buddha as Fiction" excerpt from Pagan Christs, by JM Robertson, Dorset Press
15- Mezmurlar, 149:1-9; 145:1-17; 110:1-7, İşaya 66:13-4, Daniel 9:23-4
16- Prof. Dr. Günay TÜMER, Prof. Dr. Abdurrahman KÜÇÜK, Ocak Yayınları, Baskı : İstanbul / 1993 / s, 472. http://www.students.itu.edu.tr/

~kusak/gecmiskutsal.htmhttp://ilim2000.tripod.com/Kitaplar/Biyografi/dinler_tarihi.htm
17- Warren, Buddhism in translation, s.481-82. http://www.students.itu.edu.tr/~kusak/gecmiskutsal.htm)
18- John Hogue, The Messiahs, The visions and prophecies for the second coming, Element Books limited, s. 35